QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 031 (5503) 16 fevral 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi layihəsidir"

*Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısı keçirilib*

Səh 4




### Ölkəmizdə sitrus meyvəçiliyinin inkişafına dövlət dəstəyi gücləndirilir

Bax 11

*Qeyri-neft sektorunun dinamik inkişafı ilə bağlı reallaşan tədbirlər, bir çox sahələrdə olduğu kimi, kənd təsərrüfatının inkişafında da mühüm göstəricilərin əldə olunması ilə nəticələnib. Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə kənd təsərrüfatının inkişafı ilə bağlı imzaladığı fərman və sərəncamlar bu sahənin inkişafına yönəlib. Artıq kənd təsərrüfatı sahələrində, pambıqçılığın, taxılçılığın...*

### Ermənistan çaylarımızı çirkləndirməkdə davam edir

Bax 14

*Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamenti Kür və Araz transsərhəd çaylarının, həmçinin onların transsərhəd qollarının çirklənmə vəziyyətini öyrənmək məqsədilə yanvar ayında növbəti monitorinq həyata keçirib. Nazirliyin mətbuat xidmətindən SİA-ya verilən xəbərə görə, fevral ayının I ongünlüyündə Kür çayında suyun sərfi yanvar ayının III ongünlüyünə...*

### Ceyms Mattis: ABŞ terror təhdidləri ilə mübarizədə Türkiyənin yanındadır

Bax 14

*ABŞ-ın müdafiə naziri Ceyms Mattis ABŞ-ın PKK və digər terror təhdidləri ilə mübarizədə Türkiyənin yanında olmağa davam edəcəyini deyib. AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, Pentaqondan yayılan açıqlamada Mattis ilə Türkiyənin milli müdafiə naziri Nureddin Canıklının iki ölkə arasında uzun müddətdən bəri davam edən müdafiə əlaqələrinə...*

"İtaliya qaz sahəsində Azərbaycanın ən böyük ixrac bazarlarından biri olacaq"



2

Ukrayna Milli Aviasiya Universiteti akademik Arif Paşayev kimi fəxri doktoru olmasından qürur duyur



7

"Qarşıda duran əsas vəzifə prezident seçkilərini ən yüksək meyarlara uyğun keçirməkdir"



7

Məzahir Pənahov: Seçki prosesinin yüksək səviyyədə təşkili üçün bütün lazımi tədbirlər görüləcək



7

Mərkəzi Seçki Komissiyasında dairə seçki komissiyalarının sədrləri üçün seminar-müşavirə keçirilib



8

Ermənilərin insanlığa və bəşəriyyətə qarşı törədilmiş cinayət əməllərini təsdiq edən kitab



6

7

İsrail Parlamenti qondarma "erməni soyqırımı"nı tanımaqdan imtina etdi!



14

Tofiq Yaqublunun istefa müəmması



13

Avropalı milli satqınlar debatdan belə qaçdılar



# Azərbaycan və Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri uğurla inkişaf edir

## *Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin energetika və təbii sərvətlər naziri ilə görüşü olub*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Türkiyənin energetika və təbii sərvətlər naziri Berat Albayrak ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Azərbaycanın və Türkiyənin TANAP, TAP, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi irimiqyaslı layihələri birlikdə uğurla həyata keçirdikləri qeyd olundu.***

Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev ötən ilin sentyabrında Bakıda "Əsrin müqaviləsi"nin müddətinin uzadılması mərasimində Berat Albayrak ilə görüşünü xatırladı və TANAP layihəsinin icrasının artıq yekunlaşmaqda olduğunu vurğuladı. Dövlətimizin başçısı tezliklə "Şahdəniz-2" yatağından qazın hasil olunmasına və borulara ötürülməsinə başlanılacağını bildirdi.

Nazir Berat Albayrak "Əsrin müqaviləsi"nin müddətinin uzadılmasının əhəmiyyətini xüsusi vurğulayaraq, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısının önəmini qeyd etdi. O, ötən ay TANAP layihəsinin icrası çərçivəsində sınaq işlərinə başlanıldığını dedi.

Dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

# "İtaliya qaz sahəsində Azərbaycanın ən böyük ixrac bazarlarından biri olacaq"

## *Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyanın iqtisadi inkişaf nazirinin müavini ilə görüşü olub*



***Fevralın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliyanın iqtisadi inkişaf nazirinin müavini İvan Skalfarotto ilə görüşü olub.***

AZƏRTAC xəbər verir ki, İvan Skalfarotto İtaliyanın Baş naziri Paolo Centiloninin salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəsinin Cənub Qaz Dəhlizində iştirakından və bu tədbirdə təmsil olunmasından məmnunluğunu bildirdi. İvan Skalfarotto ölkələrimiz arasında əməkdaşlığın digər sahələrdə də uğurla inkişaf etdiyini dedi, Azərbaycanın İtaliyaya sərmayə yatırmasını dəstəklədiklərini vurğuladı. O, Azərbaycan-İtaliya əməkdaşlığının digər sahələrdə də inkişafı üçün səylərin gücləndirilməsinin önəmini ifadə etdi.

Ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın energetika, ticarət və digər sahələri əhatə etdiyini deyən Prezident İlham Əliyev İtaliya şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiklərini bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, Cənub Qaz Dəhlizi ölkələrimizi birləşdirən önəmli layihədir və gələcək illərdə əməkdaşlığımızın inkişafında vacib rol oynayacaq. Prezident İlham Əliyev qeyd etdi ki, İtaliya qaz sahəsində Azərbaycanın ən böyük ixrac bazarlarından biri olacaq. Dövlətimizin başçısı Baş nazir Paolo Centiloninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İtaliyanın Baş nazirinə çatdırmağı xahiş etdi.

# “Azərbaycan və Gürcüstan uğurlu qlobal layihələr həyata keçirirlər”

*Prezident İlham Əliyev Gürcüstanın Baş nazirinin birinci müavini ilə görüşüb*



**Fevralın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın Baş nazirinin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Dmitri Kumsişvili ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Gürcüstanın uzun illər fəal əməkdaşlıq etdiklərini bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, bu əməkdaşlıq təkcə Azərbaycan və Gürcüstan üçün deyil, ümumilikdə bir çox ölkələr üçün geniş imkanlar açır. “Cənub Qaz Dəhlizi” layihəsi uğurla həyata keçirilir və bu, ölkələrimizin imkanlarının və tərəfdaşlığının göstəricisidir.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan və Gürcüstan nəqliyyat sahəsində də qlobal layihələr həyata keçirirlər. Neft-qaz sahəsindəki əməkdaşlıq ölkələrimizi bir-birinə daha da yaxınlaşdırır və dayanıqlı inkişaf üçün əsas yaradır.

“Cənub Qaz Dəhlizi” layihəsinin artıq yeddi ölkəni əhatə etdiyini deyən Prezident İlham Əliyev qeyd etdi ki, istehsalçı və tranzit ölkələr arasında maraqların uzlaşdırılması çox vacibdir. Biz buna nail olmuşuq və bu, gələcək uğurlarımızın zəmanətidir.

Gürcüstanın Baş nazirinin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Dmitri Kumsişvili Baş nazir Giorgi Kvirikaşvilinin salamlarını Prezident İlham Əliyevə çatdırdı. Gürcüstanın bu layihədə iştirakının önəmini vurğulayan qonaq Cənub Qaz Dəhlizinin icrası nəticəsində ölkəsində minlərlə yeni iş yerinin açıldığını dedi.

Dmitri Kumsişvili vurğuladı ki, Azərbaycan və Gürcüstan birlikdə uğurlu qlobal layihələr həyata keçirirlər. Bu layihələr həm Azərbaycan, həm Gürcüstan, həm də Türkiyə və Avropa üçün böyük əhəmiyyətə malikdir. Dövlətimizin başçısı Baş nazir Giorgi Kvirikaşvilinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstanın Baş nazirinə çatdırmağı xahiş etdi.

# Prezident İlham Əliyev Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviç ilə görüşüb

**Fevralın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının həmsədri Maroş Şefçoviç ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısında iştirakına və tədbirdə dediyi xoş sözlərə görə Maroş Şefçoviçə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, bu toplantı “Cənub Qaz Dəhlizi” layihəsinin inkişafında yeni mərhələdir. Azərbaycan Prezidenti Cənub Qaz Dəhlizinin icrasına verdiyi dəstəyə görə Maroş Şefçoviçə və eləcə də Avropa İnvestisiya Bankına layihənin maliyyələşməsində dəstəyi ilə əlaqədar minnətdarlığını ifadə etdi.

Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, Məşvərət Şurasının həmsədri Maroş Şefçoviç bu toplantıda və Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən əvvəlki toplantılarda iştirakından məmnunluğunu bildirdi. Maroş Şefçoviç layihənin icrasında böyük inkişafın olduğunu dedi.

## Rəsmi xronika

Prezident İlham Əliyev Ramiz Rzayevin Ali Məhkəmənin sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki. Ramiz Yaqub oğlu Rzayev Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri təyin edilsin. Bu sərəncam 2018-ci il fevralın 25-dən qüvvəyə minir.

***

Prezident İlham Əliyev Qasım Vəli oğlu Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev Litva Prezidenti Dalya Qribauskayteyə təbrik məktubu ünvanlayıb. Təbrikdə deyilir: “Hörmətli xanım Prezident, Litva Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm. Əminəm ki, Azərbaycan ilə Litva arasındakı dostluq əlaqələrinin möhkəmlənməsi, ikitərəfli səviyyədə və beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımız bundan sonra da ölkələrimiz və xalqlarımız üçün hər cəhətdən faydalı olacaqdır. Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Litva xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm”.

***

Azərbaycan Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa başsağlığı verib. Başsağlığında deyilir: “Hörmətli cənab Prezident, Florida ştatının Parklend şəhərində məktəbdə törədilmiş silahlı hücum nəticəsində insan tələfatı və yaralananlar barədə xəbərdən olduqca kədərləndim.

Bu dəhşətli hadisə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm”.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

# "Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi layihəsidir"

## *Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısı keçirilib*

***Fevralın 15-də Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısı keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib.***




Tədbirdə, həmçinin Cənub Qaz Dəhlizinin iştirakçısı olan ölkələrin energetika nazirləri və müxtəlif qurumların təmsilçiləri, o cümlədən Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, Məşvərət Şurasının həmsədri Maroş Şefçoviç iştirak ediblər. Azərbaycan Prezidenti İlham Əliyev toplantıda nitq söyləyib.

Prezident İlham Əliyev öz nitqində bildirib ki, "Cənub Qaz Dəhlizi" layihəsi Azərbaycanın indiyədək çox uğurlu olan və Azərbaycana öz iqtisadiyyatını şaxələndirməyə kömək edən enerji strategiyasının əsas elementlərindən biridir:

Biz enerji ehtiyatlarından istifadə edərək qeyri-neft sektoru, insan kapitalı və infrastruktura investisiya yatırmışıq, bununla da iqtisadiyyatımızın uzunmüddətli davamlı inkişafını təmin etmişik. Sözsüz ki, bizim əvvəlki illərdə Azərbaycanda həyata keçirdiyimiz layihələr Cənub Qaz Dəhlizinin reallaşdırılması üçün güclü bünövrə yaradıb. Bizim enerji strategiyamız müstəqilliyimizin bərpasından bir qədər sonra başlanıb və artıq 3 il sonra - 1994-cü ildə Azərbaycan BP-nin rəhbərliyi ilə dünyanın aparıcı neft şirkətləri konsorsiumu ilə müqavilə imzaladı və layihənin və investisiyaların həcmini nəzərə alaraq bu müqavilə dərhal "Əsrin müqaviləsi" adını aldı. Ötən ilin fevralında Bakıda sonuncu görüşümüzdən sonra keçən dövr ərzində biz eyni yataqla bağlı "Əsrin müqaviləsi"nin uzadılmasına dair yeni müqavilə imzaladıq. Hazırda layihənin müddəti 2050-ci ilədək uzadılıb. Qarşıdakı onilliklər ərzində biz dünyanın ən böyük neft yataqlarından biri olan "Azəri-Çıraq-Günəşli"də sabit və davamlı inkişafdan faydalanacağıq.

1994-cü il faktiki olaraq bizim tariximizdə, Azərbaycanda və dünyada neftin inkişafı tarixində dönüş nöqtəsi oldu. Bu, həmçinin Azərbaycanı dünya ictimaiyyətinə təqdim etdi, iqtisadiyyatımıza, xüsusilə də ilkin mərhələdə neft və qaz sektoruna nəhəng investisiyaların qoyulması üçün qapı açdı və Azərbaycanın etibarlı tərəfdaş olduğunu və investorlar üçün maksimum dərəcədə əlverişli investisiya mühiti yaratmaq iqtidarında olduğunu nümayiş etdirdi. Mən sadəcə olaraq xatırlatmaq istərdim ki, bizim bütün əsas neft və qaz müqavilələrimiz parlamentimiz tərəfindən ratifikasiya olunur və qanun kimi imzalanır. Bu da investorların investisiyalarına maksimum təminat verir. İki il keçəndən sonra - 1996-cı ildə "Şahdəniz" qaz kondensatı layihəsi üzrə müqavilə imzalandı və hazırda "Şahdəniz" hələ ki, Cənub Qaz Dəhlizi üçün yeganə resurs mənbəyidir. Bu da bizim tariximizdə mühüm hadisə oldu, çünki bu, bizə yenidən milyardlarla investisiya cəlb etməyə kömək etdi və Azərbaycan neft istehsal və ixrac edən ölkədən qaz istehsal və ixrac edən ölkəyə də çevrildi. Bu gün bu iki əsas enerji layihəsi regional əməkdaşlıqla bağlı məsələlərdə mühüm rol oynayır. Bu, regionları və qitələri birləşdirən əsas kəmər infrastrukturunun tikintisini stimullaşdırdı. Bu gün bu iki meqalayihə regionda və Avropada enerji təchizatını şaxələndirməyə kömək edir. Sonra dənizə çıxışı olmayan ölkə kimi beynəlxalq bazarlara çıxışımız olmadığından, biz kəmərlər tikməli olduq və bunun üçün bizim artıq regional əməkdaşlığa ehtiyacımız yarandı. Düşünürəm ki, bu da planlarımızı yaxşı nümayiş etdirdi. Beləliklə, Bakı ilə Gürcüstanın Supsa dəniz limanını birləşdirən ilk kəmər 1990-cı illərin sonunda açılaraq xam neft nəql edən kəmərlə Xəzər dənizi ilə Qara dəniz arasında ilk bağlantı yaratdı. Lakin bu, yetərli deyildi, çünki bizim neft ehtiyatlarımızın tam şəkildə işlənməsi üçün bu kəmərin tutumu kifayət etmirdi. Bu səbəbdən də əsas neft kəmərinin tikintisi planlaşdırıldı və 2006-cı ildə Xəzər dənizi ilə Aralıq dənizini birləşdirən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin uğurla açılışı oldu. Hazırda Bakı-Tbilisi-Ceyhan neft kəməri təkcə Azərbaycandan deyil, Xəzər dənizinin o biri tərəfində olan - Xəzərin şərq sahillərindəki yataqlardan neft nəql etməklə artıq Azərbaycanı tranzit ölkəyə, tranzitdə etibarlı tərəfdaşa çevirir.

2007-ci il də bizim tariximizdə mühüm il olub. Çünki Azərbaycan ilk dəfə qaz ixracatçısı oldu. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin açılışından sonra bizim qazımız Gürcüstan və Türkiyə bazarlarına ixrac olunmağa başladı və bu, eyni zamanda, "Şahdəniz" yatağının işlənilməsinin ikinci mərhələsi və "Cənub Qaz Dəhlizi" layihəsi üçün bünövrə yaratdı. Biz "Şahdəniz" yatağının işlənilməsinin yeni mərhələsi üçün yeni imkanların yaradılması yollarını müzakirə edirik. Əlbəttə ki, bizim qazımızı Türkiyə və Avropaya ixrac etmək üçün diametri daha böyük olan kəmərə ehtiyacımız var idi və 2012-ci ildə İstanbulda Azərbaycan və Türkiyə Trans-Anadolu - TANAP kəmərinin tikintisi üzrə tarixi sənəd imzaladı. Düşünürəm ki, bu tarix regional inkişaf, əməkdaşlıq bizim ölkələrimiz üçün iqtisadi faydalara güclü təsir göstərəcək. Çünki bu da müasir tarixdə dönüş nöqtəsi oldu. TANAP Cənub Qaz Dəhlizinin fundamental elementlərindən biridir və 2012-ci il faktiki olaraq, "Şahdəniz-2"yə əsas investisiyalara qapı açdı. Çünki bundan sonra - 2013-cü ildə "Şahdəniz-2"yə investisiya yatırmaqla bağlı qərar qəbul olundu. TANAP olmadan bu mümkün olmazdı. 2013-cü il Trans-Adriatik kəmərinin TANAP layihəsinin davamı kimi seçildiyi il oldu. Beləliklə, bu, görülən işlərin qısa tarixçəsidir. Əlbəttə, bu tarixçə onu göstərir ki, biz 20 ildən çoxdur Cənub Qaz Dəhlizinin həyata keçirilməsi istiqamətində irəliləyirik. Bu 20 il uğur, nailiyyətlər, inkişaf, transformasiya və regional əməkdaşlıq illəri olub.

Bu gün bizim artıq təkcə Azərbaycan, Gürcüstan, Türkiyə kimi üç ənənəvi müttəfiqi deyil, daha çox ölkəni əhatə edən güclü regional əməkdaşlıq formatımız var. Ötən görüşümüzdən sonra keçən dövr ərzində Cənub Qaz Dəhlizinin həyata keçirilməsində əhəmiyyətli irəliləyiş əldə olunub. Mən sizin və Azərbaycan xalqının diqqətinə bəzi rəqəmləri çatdıracağam. Çünki bu masa arxasında əyləşənlər bizim hansı mərhələdə olduğumuzu yaxşı bilirlər. Lakin mən demək istərdim ki, son bir ildə layihənin icrası çox uğurlu olub. Biz Cənub Qaz Dəhlizinin 4 elementinin hamısı ilə bağlı yaxşı irəliləyişə nail olmuşuq. "Şahdəniz-2" yatağı üzrə işlərin 99 faizdən çoxunu tamamlamışıq. Müqayisə üçün, bir il əvvəl bu rəqəm 90 faiz olub. Cənubi Qafqaz Boru Kəməri ilə bağlı işlərin təxminən 95 faizi tamamlanıb, bir il əvvəl bu rəqəm 90 faiz olub. TANAP-ın icrası 95 faizə yaxınlaşır, bir il əvvəl bu, 70 faizə yaxın olub. TAP-ın icrası bir il əvvəlki 34 faizlə müqayisədə 70 faizə yaxın, ola bilsin ki, 66-67 faiz tamamlanıb. Beləliklə, bu, həqiqətən də çox mühüm inkişafdır. Bu, onu göstərir ki, 2017-ci il bəlkə də layihənin icrasında həlledici il olub və hazırda biz yekunlaşmağa çox yaxınıq. Mən, həmçinin bildirmək istərdim ki, 20 il bundan əvvəl Azərbaycan, Gürcüstan və Türkiyə arasında yaradılmış regional əməkdaşlıq həqiqətən də regionumuzda və Avropada enerji sahəsində inkişafda mühüm rol oynayıb. Çünki bu regional əməkdaşlıq təkcə nəhəng, genişmiqyaslı enerji layihələrinin həyata keçirilməsinə yol açmayıb, həm də regionumuzda sabitlik, proqnozlaşdırılma imkanı və çox səmimi əməkdaşlıq yaradıb. Eyni zamanda, bu, bizə diqqəti digər nəqliyyat layihələrinə cəmləşdirməyə imkan verib. 2017-ci ilin fevralında sonuncu görüşümüzdən sonra keçən dövrdə regionda başqa mühüm bir hadisə baş verdi. Ötən il oktyabrın sonunda Bakıda biz təkcə üç ölkə arasında deyil, həm də Asiya və Avropa arasında yeni dəmir yolu əlaqəsi olan yeni layihənin - Bakı-Tbilisi-Qarsın açılışını etdik. Bu, artıq Asiyadan Avropaya ən qısa yoldur, yüklərin daşınmasına sərf olunan zamanı iki dəfədən çox azaldır və artıq şirkətlərə xidmətlər göstərir. Əminəm ki, onlar bu layihəni ciddi şəkildə əsas prioritetlərindən biri hesab edəcəklər. Bu gün artıq yüklərin artması onu göstərir ki, Bakı-Tbilisi-Qars yeni İpək Yolu layihəsinin çox mühüm elementi olacaq. Sözsüz ki, burada, Qafqazda, Gürcüstan, Türkiyə və Azərbaycan arasında güclü regional əməkdaşlıq olmasaydı, neft-qaz layihələri həyata keçirilməsəydi, Bakı-Tbilisi-Qars bəlkə də reallıq üçün deyil, sadəcə tarix üçün bir layihə olacaqdı. Bu, bizim əldə etdiyimiz real nəticədir. Bu gün biz artıq geniş komanda ilə bu masa arxasında əyləşərkən görürük ki, Cənub Qaz Dəhlizinin üzvü olan ölkələr arasında eyni əməkdaşlığı yarada bilərik. Bu, artıq baş verir və tərəfdaş ölkələrdən yüksək səviyyəli nümayəndə heyətlərinin iştirakı həqiqətən də bunu nümayiş etdirir. Hələ ki, "Şahdəniz" Cənub Qaz Dəhlizi üçün yeganə resurs mənbəyidir. Lakin düşünürəm və əminəm ki, gələcəkdə biz Azərbaycanda əlavə həcmdə resurslara malik olacağıq. Çünki bu gün biz beynəlxalq tərəfdaşlarımızla fəal şəkildə yeni layihələr, Xəzər dənizinin Azərbaycan sektorundakı yeni qaz yataqları üzərində işləyirik. Xüsusilə tezliklə, ola bilsin ki, bir neçə ilə, bəlkə də bundan az müddətdə hasilata başlanacaq "Abşeron" yatağı, çox böyük qaz ehtiyatı olan "Ümid" və "Babək" yataqları ilə bağlı Azərbaycan xarici şirkətlərlə fəal danışıqlar aparır.

Tezliklə beynəlxalq əməkdaşlığa cəlb olunacağına ümid bəslədiyimiz başqa bir yataq "Qarabağ" adlanır. Həmçinin böyük qaz potensialı olan iki yataq - "Dan ulduzu" və "Əşrəfi". Beləliklə, Azərbaycanın təsdiq olunmuş qaz ehtiyatları "Şahdəniz" yatağından iki dəfədən artıq çoxdur - 2,6 trilyon kubmetr qaza bərabərdir və əminəm ki, daha çox olacaq. Çünki bizim təcrübəmiz onu göstərir ki, ilkin olaraq gözlənilən ehtiyatlar əvvəlkindən xeyli çox olur.

Ardı Səh. 5

# "Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi layihəsidir"

## *Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısı keçirilib*

Əvvəli səh. 4




Məsələn, 1994-cü ildə "Əsrin müqaviləsi" imzalananda "Azəri-Çıraq-Günəşli" yataqlarının ehtiyatları 500 milyon tondan bir qədər çox qiymətləndirilirdi. Təvazökarlıqla desək, hazırda bu rəqəm iki dəfə çox - 1 milyard tona yaxındır. Düşünürəm və ümid edirəm ki, qaz yataqlarında da eyni mənzərənin şahidi olacağıq. Ona görə də Azərbaycan qarşıdakı onilliklərdə dünya bazarlarına enerji ehtiyatlarının etibarlı, uzunmüddətli təchizatçısı olacaq. Bu gün Azərbaycan nefti bəzi Avropa ölkələrinin neft istehlakının üçdəbiri və ya daha çox, hətta 40 faizini təşkil edir. Azərbaycan öz qaz ehtiyatları ilə Avropa bazarına daxil olmağa hazırdır.

Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi layihəsidir. Biz milli təhlükəsizlikdən danışarkən əlbəttə ki, hazırda enerji təhlükəsizliyi ən vacib elementlərdən biridir. Cənub Qaz Dəhlizi enerji şaxələndirilməsi layihəsidir, bizdə bu, marşrutların və mənbələrin şaxələndirilməsidir. Bu, əsl şaxələndirmədir. Çünki təkcə marşrutların şaxələndirilməsi bizimkindən bir qədər fərqlidir. Cənub Qaz Dəhlizi enerji sahəsində əməkdaşlıq layihəsidir və əməkdaşlığın necə olmalı olduğunu göstərir. Əməkdaşlıq yalnız o zaman mümkündür ki, bütün tərəflər ondan faydalansın. Bu səbəbdən, başlanğıcda bizim əsas məqsədimiz istehsalçılar, tranzit ölkə və istehlakçılar arasında yaxşı balansın tapılmasıdır. Yalnız bu halda biz uğur qazana bilərik və layihənin uğurlu icrası bizim doğru yolda olduğumuzu göstərir. İstehsalçıların və ya istehsalçının, - hələ ki, cəmi bir istehsalçı var - Azərbaycan, - tranzit ölkələrin və istehlakçıların maraqları tam şəkildə nəzərə alınır və Cənub Qaz Dəhlizi cəlb olunmuş bütün ölkələrdə bir neçə milyardlıq investisiyalara yol açır. Bu, minlərlə yeni iş yeri deməkdir. Bu, təkcə enerji deyil, həm də nəqliyyat infrastrukturu, nəqliyyat infrastrukturuna investisiya yatırılması deməkdir. Cənub Qaz Dəhlizi marşrut boyunca yerləşən və Cənub Qaz Dəhlizinin üzvü olan ölkələrin bir çox hissələrinin qazlaşdırılmasına gətirib çıxaracaq. Bütün bunlar inkişaf, sabitlik, proqnozlaşdırılma imkanı deməkdir və əməkdaşlığa yol açır. Çünki bu gün Cənub Qaz Dəhlizinin üzvü olan ölkələr Azərbaycanın çox yaxın tərəfdaşlarıdır. Azərbaycan artıq bu ölkələrin böyük əksəriyyəti ilə strateji tərəfdaşlığa dair bəyannamələr imzalayıb. Hazırda biz Avropa İttifaqı ilə danışıqlar aparırıq və yeni tərəfdaşlıq sazişi də Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıq üçün yeni format yaradacaq.

Əlbəttə ki, əvvəlki layihələrlə yanaşı, "Cənub Qaz Dəhlizi" layihəsi ölkəmizə yeni faydalar verir. Azərbaycan iqtisadiyyatı şaxələndirmək, insan kapitalına investisiya yatırmaq, iqtisadiyyatı tamamilə dəyişmək üçün öz enerji ehtiyatlarından səmərəli şəkildə istifadə edib. Hazırda ümumi daxili məhsulun mütləq əksəriyyəti özəl sektorun payına düşür. Son 15 ildə iqtisadiyyatımız 3 dəfədən çox, ümumi daxili məhsul 3,2 dəfə artıb. Biz işsizlik və yoxsulluğu azaltmaq üçün enerji ehtiyatlarından düzgün şəkildə istifadə etməyə müvəffəq olmuşuq. Son 15 ildə əhalimizin 1,5 milyon nəfər artmasına baxmayaraq, işsizlik səviyyəsi çox aşağı - 5 faizdir. Yoxsulluq səviyyəsi 5,4 faizdir, savadlılıq səviyyəsi 100 faizə yaxındır.

Biz iqtisadiyyatı şaxələndirmək üçün insan kapitalına investisiya yatırmışıq, iş yerləri açmışıq, müasir infrastruktur layihələri yaratmışıq. 2018-ci il yanvar ayının nəticələri göstərir ki, iqtisadiyyatımız əsasən qeyri-enerji sektorunda inkişaf edir. Burada iqtisadi artım 4 faizə yaxın olub. Yanvarda sənayemizin qeyri-enerji sektorunda iqtisadi artım 8,7 faiz olub. Azərbaycanın valyuta ehtiyatları ümumi daxili məhsula bərabərdir. Düşünürəm ki, iqtisadiyyatın şaxələndirilməsinin ən yaxşı göstəricisi Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsidir. Son qiymətləndirmə göstərir ki, Azərbaycan rəqabət qabiliyyətinə görə dünyada 35-ci yerdədir. İnkişaf etməkdə olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə Azərbaycan 3-cü yerdədir. Bizdən əvvəl yalnız 30 inkişaf etmiş ölkə və 2 inkişaf etməkdə olan ölkə var. Bu, o deməkdir ki, biz rəqabətlilik və inkişafa görə 33-cü və 35-ci yerdəyik. Bu, bizim enerji amili ilə dəstəklənən siyasətimizin göstəricisi və siyasətimizin nəticəsidir. Sözsüz ki, biz Azərbaycanda yeni enerji inkişafı ilə bağlı tərəfdaşlarımızla fəal şəkildə işləməyə davam edəcəyik. Lakin, eyni zamanda, qonaqlarımıza məlumat vermək istərdim ki, əlbəttə, bizim üçün ən vacibi qeyri-enerji sektorudur. Bütün bunlar qısaca olaraq ölkəmiz və tərəfdaşlarımız üçün layihənin faydaları haqqında məlumat idi və onu göstərir ki, Avropanın uzunmüddətli enerji layihəsi olan "Cənub Qaz Dəhlizi" layihəsi ölkələrimizə müsbət nəticələr verəcək. Bir daha bizimlə birlikdə olduğunuza görə təşəkkür etmək istərdim. Fürsətdən istifadə edərək sizi gələn il Məşvərət Şurasının beşinci toplantısına dəvət etmək istərdim. Düşünürəm ki, həmin vaxta qədər Cənub Qaz Dəhlizinin 3 mühüm seqmenti artıq işə salınmış olacaq və bizim qazımız öz bazarlarına çıxış əldə edəcək.

x x x

Azərbaycanın energetika naziri Pərviz Şahbazov:

-Cənab Prezident, icazə verin, bizim üçün rəhbər prinsipləri ortaya qoyan hərtərəfli çıxışınız üçün Sizə "Çox sağ olun" deyim. Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının keçirilməsi təşəbbüsü ilə dörd il bundan əvvəl çıxış etdiyiniz üçün Məşvərət Şurasının adından Sizə dərin minnətdarlığımızı bildirmək istəyirəm. Bu forum iştirakçılara əməkdaşlığı inkişaf etdirmək və nəticələrə nail olmaq imkanı yaradıb. Cənab Prezident, biz Avropa, Azərbaycan və digər iştirakçı ölkələrin təhlükəsizliyini və inkişafını artıracaq Cənub Qaz Dəhlizinin yaradılmasında Sizin baxışınızı xüsusilə qiymətləndiririk. İcazə verin, sözü çıxış etmək üçün Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti cənab Maroş Şefçoviçə verim. Cənab Şefçoviç, söz sizə verilir.

x x x

Daha sonra Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviç çıxış edib. O bildirib ki, qlobal enerji bazarında yeni dinamizm müşahidə olunur:

Biz enerji qiymətlərinin dəyişdiyini gördük, biz İkinci Dünya müharibəsindən bəri hələ də ən böyük iqtisadi böhranın öhdəsindən gəlirik. Biz, həmçinin tarixi Paris müqaviləsinin imzalanmasına gətirib çıxaran iqlim dəyişikliyinin öhdəsindən gəlmək üçün yeni yolları nəzərdən keçiririk.

Beləliklə, biznes və enerji sektorunun ümumi ab-havası və dinamikası tamamilə yeni bir quruluşa malik idi və mən deyərdim ki, görünməmiş çağırışlar var idi və layihənin cədvəl üzrə vaxtında icrası faktı sıx əməkdaşlığı, yaxşı anlaşma və problemlərin vaxtında həllini çox yaxşı sübuta yetirir. Buna görə də, cənab Prezident, bizi bir daha gözəl Bakı şəhərində qəbul etdiyiniz üçün Sizə təşəkkürümü bildirmək istəyirəm. Həmçinin mən energetika naziri Pərviz Şahbazova və onun sələfi, bizimlə uzun illər yaxından çalışmış, layihəyə sadiqliyi ilə bağlı bizim çoxlu müsbət xatirələrimiz olan, yaxın dostumuz kimi daim qəlbimizdə yaşayan Natiq Əliyevə minnətdarlığımı bildirirəm. Həmçinin Avropa Komissiyası adından Avropa İttifaqı və Azərbaycan arasında ikitərəfli münasibətlərdə müsbət ab-havanın və yeni dinamizmin olduğunu təqdirəlayiq hesab edirəm. Bizim ötən il çox intensiv əməkdaşlığımız olub. Siz Brüsselə iki dəfə səfər etdiniz, hərtərəfli çərçivə sazişi üzərində intensiv iş bərpa olundu və həmçinin keçən həftə xarici işlər naziri və Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik üzrə ali nümayəndəsi səviyyəsində çox uğurlu əməkdaşlıq şurası keçirildi. Beləliklə, hesab edirəm ki, bu yeni əməkdaşlıq formatı bizə məxsusi olaraq, lakin, eyni zamanda, çox mühüm olan bu layihə üzrə təkcə enerji sahəsində əməkdaşlıq etmək yox, həmçinin digər siyasi və iqtisadi əməkdaşlıq formalarını müəyyən etmək üçün bu layihədən necə kənara çıxmaq yollarını göstərəcək. Cənab Prezident, Siz layihənin bütün əsas seqmentləri üzrə - istər "Şahdəniz-2" yatağının işlənilməsi, Cənubi Qafqaz Boru Kəmərinin genişlənməsi, istərsə də Trans-Anadolu kəməri və Trans-Adriatik boru kəməri üzrə bizim layihə boyunca üzləşdiyimiz bütün çağırışlara baxmayaraq, aparılan işlər barədə bizə çox yaxşı təsir bağışlamış işlərin gedişatını olduqca ətraflı təsvir etdiniz. Mən sizinlə 100 faiz razıyam ki, bu gözəl ab-hava və regional əməkdaşlıq olmasaydı buna nail olmaq mümkün olmazdı. Buna görə də mən layihədə iştirak edən bütün ölkələrin nümayəndələrinə, eyni zamanda, bu layihə çərçivəsində yerlərdə işləri təhvil verən şirkətlərin baş icraçı direktorlarına və nümayəndələrinə təşəkkürümü bildirirəm.

Deyərdim ki, bu layihəni ilk dəfə müzakirə etdikdən sonra Cənub Qaz Dəhlizinin əhəmiyyəti artdı. Biz bu layihənin Avropada daha da çoxsaylı ölkələr üçün necə də cəlbedici olduğunu gördük, istər Mərkəzi, istər Şərqi Avropa olsun, istərsə də Qərbi Balkan ölkələri. Buna görə, bu layihənin ötən ilin noyabr ayında qəbul olunan Şərq Tərəfdaşlığı Sammitinin Bəyannaməsində strateji əhəmiyyət daşıyan layihə kimi göstərilməsi də çox aydın idi. Avropa İttifaqı adından biz bu uzun boru kəmərinin bütün əsas komponentlərinin ümumi maraq dairəsi statusuna malik olan layihə çərçivəsində işlənilməsini və Avropa qurğularının birləşməsindən faydalanmasını təmin etməklə bu layihənin strateji əhəmiyyətini vurğulamaq istəyirik.

Çox şadam ki, bir neçə gün bundan əvvəl Avropa İnvestisiya Bankının bu layihəyə maliyyə vəsaiti ayıracağı təsdiqləndi. Səhv etmirəmsə, bu, Avropa İnvestisiya Bankının tarixində bir layihəyə ayrılmış ən böyük maliyyə dəstəyidir. Lakin istərdim ki, Avropa İnvestisiya Bankı tərəfindən qəbul olunan bu çox vacib qərar barədə ətraflı məlumatı mənim həmkarım olan, Avropa İnvestisiya Bankının vitse-prezidenti versin. Mən həmişə qeyd edirəm ki, bu layihəyə dəstək verən ən böyük dövlət bankı Avropa İnvestisiya Bankı olmuşdur. Cənub Qaz Dəhlizinin Avropanın enerji təhlükəsizliyi üçün əhəmiyyəti çox vacibdir və bu, gələcəkdə daha da artacaqdır. Çünki hazırda Avropa İttifaqı istehlak etdiyi enerjinin yarıdan çoxunu idxal edir, daha dəqiq desək, istifadə etdiyimiz təbii qazın 69 faizini və neftin 89 faizini idxal edirik.

Ardı Səh. 6

# “Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi layihəsidir”

## *Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısı keçirilib*

Əvvəli Səh. 5




Hazırda biz enerji resurslarının əsas hissəsini Rusiya, Norveç və Əlcəzairdən alırıq. Lakin biz əlbəttə ki, şaxələndirmək istəyirik və biz həqiqi şaxələnməyə üstünlük veririk. Yəni, yeni mənbələrə, yeni tərəfdaşlara, yeni marşrutlara və Avropadakı enerji sistemlərinə daxil olacaq yeni təchizata üstünlük veririk. Biz Avropa İttifaqının hər bir üzvünün və ya tərəfdaşının ən azından 3 fərqli təbii qaz mənbəyinə çıxışının olmasını istəyirik. Çünki biz yüksək keyfiyyətli enerji təhlükəsizliyinin bu cür olacağını başa düşürük. Buna görə də biz bir neçə il bundan əvvəl Bolqarıstanın energetika naziri Temenujka Petkova və Baş nazir Boyko Borisovla Mərkəzi və Şərqi Avropa üzv ölkələrinin əməkdaşlığına başladıq və biz orada belə bir qərara gəldik ki, daha da dayanıqlı bazar, daha münasib qaz qiymətləri üçün ən yaxşı variant bir neçə bağlayıcı qurğu vasitəsilə ilə ölkələrimizi birləşdirməkdir. Bu, bağlayıcılarla ikiistiqamətli axın olacaq, bizim sistemlərə daha çox universallıq və Avropa İttifaqı daxilində təbii qazın necə çatdırılmasında daha da yaxşı imkan və seçimlər verəcək. Çünki Mərkəzi və Şərqi Avropa ölkələri Qərbi Avropa ölkələri ilə müqayisədə təbii qaza görə hələ də bir az baha qiymət ödəyirlər. Bu məsələyə düzəliş edilməlidir və biz daha yaxşı infrastruktur inkişafı vasitəsilə bu problemi əlbəttə ki, aradan qaldırmaq istəyirik. Buna görə də gələcəkdə biz Xəzər regionundan, Azərbaycandan gələn təchizata çox güvənirik. Biz, həmçinin Avropa İttifaqına yekun mayeləşdirilmiş təbii qaz təchizatını qəbul etməkdən ötrü imkanlarımızı yaxşılaşdırmaq üçün gərgin çalışırıq. Biz qlobal bazarlara çıxışa təminat verəcək mayeləşdirilmiş təbii qaz infrastrukturumuzu tamamlayırıq. Biz, həmçinin Şərqi Aralıq dənizi regionunda bəzi müsbət irəliləyişləri də müşahidə edirik. Buna görə də Cənub Qaz Dəhlizi çox mühüm rol oynayacaq. Çünki bu, yeni ərazidən, strateji əhəmiyyət daşıyan enerji regionundan qazı nəql edəcək ilk yeni boru kəməridir. Məhz buna görə, biz bu ili çox səbirsizliklə gözləyirik. Hesab edirəm ki, bu il layihənin tamamlanması üçün çox həlledici olacaqdır. Çünki bu ilin sonuna kimi biz ilk qazın Azərbaycandan Türkiyəyə nəql olunacağını gözləyirik. Ümid edirik ki, bu, bizim yekun məqsədimizə zəmin yaradacaq. Məqsəd isə Xəzər hövzəsindən gələn qazın 2020-ci ilə qədər Avropaya çatdırılmasıdır. Sonra isə Azərbaycan qazına ehtiyacı olan bütün ölkələrə qazı çatdırmaq üçün Avropa İttifaqı daxilində və Avropadakı tərəfdaşlarımızla çalışmaqdır. Buna görə də biz yunan-bolqar bağlayıcı qurğusu üzərində Temenujka və yunan tərəfdaşlarımız ilə çox sıx çalışırıq. Buna görə də mən burada qazın daha da Şimala nəql edilməsi imkanlarını müəyyən etmək üçün Bolqarıstanla çox sıx əməkdaşlıq edən Ruminiyadan olan dostlarımızı, həmçinin qazın yeni şaxələndirilmiş təchizatı sayəsində yeni imkanlar açılan Qərbi Balkan ölkələrindən olan dostlarımızı görməyimə çox şadam.

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısı işini plenar sessiya ilə davam etdirib.

# Ermənilərin insanlığa və bəşəriyyətə qarşı törədilmiş cinayət əməllərini təsdiq edən kitab

***Fevralın 15-də Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Mərkəzində Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən Azərbaycan və ingilis dillərində nəşr edilmiş “Erməni əsirliyində: işgəncə və qətl antologiyası” adlı kitabın təqdimatı keçirilib.***

AZƏRTAC xəbər verir ki, əvvəlcə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı şəhid olmuş qəhrəman Vətən övladlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri açan Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının katibi, İşçi Qrupun rəhbəri İsmayıl Axundov kitabın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi əsasında Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri, general-leytenant Mədət Quliyevin nəzarəti ilə tərtib edildiyini diqqətə çatdırıb. O qeyd edib ki, “Erməni əsirliyində: işgəncə və qətl antologiyası” adlı kitabla tanış olarkən əsir və girovlara qeyri-adi üsullarla verilmiş işgəncə faktları oxucunu dəhşətə gətirə bilər. Bunlar danılmaz faktlardır və hadisə qurbanlarının şahid ifadələridir. Kitabda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı Ermənistan hərbçiləri və terrorçu-quldur dəstələri tərəfindən əsir və girov götürülmüş azərbaycanlılara, o cümlədən digər xalqların nümayəndələrinə qarşı adi insani dəyərlərin və beynəlxalq humanitar hüquq normalarının pozulması faktları toplanıb. Kitab müxtəlif yaşa məxsus insanların xatirələri əsasında tərtib edilib. Bunlar adi xatirələr deyil, insanlığa və bəşəriyyətə qarşı törədilmiş cinayət əməllərini təsdiq edən ifadələrdir. Xatirələr qadın, uşaq, qocalara, eyni zamanda, həm mülki şəxslərə, həm də hərbçilərə aiddir. Kitabda əsir və girovluqdan azad edilmiş 1450 nəfərdən 339-nun ifadəsi əksini tapıb.

Mədəniyyət və turizm nazirinin müavini, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının üzvü Ədalət Vəliyev kitabın ərsəyə gəlməsində əməyi olanlara təşəkkürünü bildirib. O, Dövlət Komissiyasının son illər xalqımızın haqq səsinin dünyaya çatdırılması istiqamətində gördüyü işləri yüksək qiymətləndirib. Ə.Vəliyev deyib ki, bu kitab insanlığa qarşı törədilmiş cinayətlərin əks olunduğu mühüm sənəddir. Mədəniyyət bir xalqın dövlətçilik tarixi olmadan da onunla bərabər addımlayan stimulverici əsas amildir.

Tədbirdə Milli Məclisin deputatı, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Musa Qasımlı deyib ki, yeni kitab bütövlükdə ermənilərin xalqımızın başına gətirdiyi dəhşətlərdən bəhs edir. Kitab başımıza gələn müsibətlərdən nəticə çıxarmaqla yanaşı, gələcək nəsillərə istiqamət verir, onları unutqan olmamağa səsləyir.




“Erməni əsirliyində: işgəncə və qətl antologiyası” nəşrinin başqa dillərə də tərcüməsinin vacibliyini söyləyən professor M.Qasımlı deyib ki, bu kitab mütləq səfirliklərimizə göndərilməli və nəşrin dünyada yayılmasına, təbliğinə çalışılmalıdır. O, kitabda yer alan yazılar əsasında sənədli filmlərin çəkilməsini, teatr tamaşalarının hazırlanmasını və qələm adamlarının bu real faktlar əsasında əsərlər yazmasını tövsiyə edib. Belə dəyərli kitabları millətimizin haqq işi uğrunda mübarizəsinə sanballı töhfə hesab edən alim deyib ki, buradakı faktlar erməni yalanlarına ən tutarlı cavabdır.

Təqdimat mərasimində Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının üzvləri - Mətbuat Şurasının sədri Əflatun Amaşov, “Azərbaycan” qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov, “İki Sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, eləcə də AMEA-nın Şərqşünaslıq İnstitutunun professoru, tarix elmləri doktoru Solmaz Rüstəmova-Tohidi, AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun böyük elmi işçiləri Rizvan Hüseynov və Moisey Bekker, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev, Ombudsman Aparatının işgəncələrin qarşısının alınması şöbəsinin müdiri Rəşid Rumzadə, Gənclər Təşkilatları Milli Şurasının sədri Seymur Hüseynov çıxış edərək kitabda əksini tapmış hadisələri sadəcə humanitar hüquq normalarının pozulması faktı kimi deyil, ermənilər tərəfindən insanlığa və bəşəriyyətə qarşı törədilmiş müharibə cinayəti kimi qiymətləndiriblər. Çıxış edənlər dünyada ikili standartların hökm sürməsinə baxmayaraq, hazırda Ermənistanda yüksək dövlət vəzifələri daşıyan müharibə canilərinin beynəlxalq ədalət məhkəməsi qarşısında cavab verəcəklərinə inam ifadə ediblər. Bu baxımdan kitabın zəngin informasiya mənbəyi olduğu və dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün zəruri tədbirlərin görülməsinin vacibliyi vurğulanıb.

Tərtibçilər adından çıxış edən Dövlət Komissiyasının İşçi Qrupu rəhbərinin müavini Eldar Səmədov kitabda əksini tapmış faktların müxtəlif vaxtlarda əsir-girovluqdan azad edilmiş şəxslərdən alınaraq arxivləşdirildiyini bildirib. Ermənilər tərəfindən törədilmiş qeyri-insani əməlləri, işgəncə və zorakılıq hallarını insan ləyaqəti, şərəfi, əxlaqı, eləcə də milli-mental dəyərlər baxımından kitabda tam çılpaqlığı ilə təqdim etməkdən çəkindiklərini bildirən tərtibçi bu vəhşiliklərin insanlıq adına ləkə olduğunu deyib. O, ermənilərin bu cür işgəncə və zorakılıq metodlarını hələ XIX əsrin ortalarından etibarən bölgənin türk-müsəlman əhalisinə qarşı tətbiq etdiklərini bildirib. E.Səmədov faşizmin, ksenofobiyanın, dini və irqi dözümsüzlüyün, ayrı-seçkiliyin Ermənistanın dövlət siyasəti olduğunu diqqətə çatdırıb.

Sonda Dövlət Komissiyasının katibi İsmayıl Axundov yaxın vaxtlarda kitabın rus və alman dillərinə də tərcümə olunacağını söyləyib. Bildirib ki, əsir və girovluqdan azad olunmuş 1450 nəfərin hər birindən videoifadələr alınıb və həmin ifadələr arxivləşdirilib, mətnləri elektronlaşdırılıb.

Nəşrin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın Ermənistanın Azərbaycana qarşı dövlət səviyyəsində yeritdiyi işğalçılıq və terror siyasətinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması sahəsində fəaliyyətlərinin bariz nümunəsi olduğunu diqqətə çatdıran İsmayıl Axundov Komissiyanın üzvləri və tədbir iştirakçıları adından ölkə rəhbərliyinə bu sahədə verdiyi dəstəyə və qayğıya görə təşəkkürünü bildirib. İ.Axundov bu istiqamətdə fəaliyyətin ardıcıl davam etdiriləcəyini vurğulayıb.

## Ukrayna Milli Aviasiya Universiteti akademik Arif Paşayev kimi fəxri doktoru olmasından qürur duyur



Ukrayna Milli Aviasiya Universitetinin fəxri doktor guşəsində Milli Aviasiya Akademiyasının (MAA) rektoru, Azərbaycanın görkəmli alimi, pedaqoqu, elm və təhsil təşkilatçısı, ictimai xadimi, Dövlət mükafatı laureatı, fizika-riyaziyyat elmləri doktoru, professor, akademik Arif Mir Cəlal oğlu Paşayevin şəkli vurulub. Bu barədə AZƏRTAC-a məxsusi açıqlamasında universitetin rektor vəzifəsini icra edən Vladimir İsaenko bildirib.




"Bu il universitetin yaranmasının 85 illiyi ilə bağlı tədbirlərin keçirilməsinə başlanılacaq. Ötən illər ərzində burada dünyanın 140 ölkəsindən on minlərlə mütəxəssis və magistr, minlərlə elmlər namizədi və doktoru yetişdirilib. Ukrayna Milli Aviasiya Universiteti Azərbaycan Milli Aviasiya Akademiyasının rektoru Arif Paşayev kimi fəxri doktoru olmasından qürur hissi keçirir. O, tanınmış ictimai xadim, yüksək elmi-praktiki potensiala malik alimdir, Azərbaycanda aviasiya təhsilinin müasir səviyyədə inkişafına yorulmadan gərgin əmək sərf edən rəhbərdir. Universitet adından Arif Paşayevin doğum günü ilə əlaqədar təbrik məktubu göndərilib", - deyə Vladimir İsaenko əlavə edib. O, həmçinin bildirib ki, aviasiya sahəsində mütəxəssislərin yetişdirilməsi ənənəsini davam etdirən universitet Ukraynanın ali təhsil ocaqları arasında reytinqə görə, ilk onluqdadır. Hazırda universitetdə 55 ölkədən 25 min tələbə təhsil alır.

Ukrayna Milli Aviasiya Universitetində Azərbaycandan 200-ə yaxın tələbənin təhsil aldığını vurğulayan V.İsaenko qeyd edib ki, perspektivdə əcnəbi tələbələrin sayının iki dəfə artırılması planlaşdırılır.

## Dövlət sərhədini pozduqlarına görə 45 nəfər saxlanılıb



Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən 2018-ci ilin yanvar ayı ərzində dövlət sərhədinin etibarlı mühafizəsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmiş, qaçaqmalçılığa, qeyri-leqal miqrasiyaya, narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə uğurla davam etdirilib. Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən SİA-ya verilən məlumata görə, ay ərzində dövlət sərhədini pozduqlarına görə 45 nəfər saxlanılmış, onların 12 nəfəri Azərbaycan Respublikası, 13 nəfəri Özbəkistan, 6 nəfəri Gürcüstan, 3 nəfəri Pakistan, 2 nəfəri İran İslam Respublikası, 2 nəfər Mərakeş, 1 nəfəri Rusiya, 1 nəfər Tacikistan, 1 nəfər Konqo, 1 nəfər İraq, 1 nəfəri İordaniya, 1 nəfəri Şri-Lanka, 1 nəfəri Türkiyə vətəndaşları olub. Sərhəd rejim pozucusu qismində 29 nəfər saxlanılaraq barələrində müvafiq tədbirlər görülüb.

Dövlət sərhədindən keçid məntəqələrində rejim qaydalarını pozduqlarına görə, o cümlədən ölkədən çıxışı qadağan olunduğuna görə 1145, ölkəyə girişi qadağan olunduğuna görə 93, vizası olmadığına görə 202, vizasının və pasportunun müddəti bitdiyinə görə 130, müvafiq sənədi olmadığına görə 64, ölkədə müddətdən artıq qaldığına görə 90, etibarnaməsi olmadığına görə 142 nəfər dövlət sərhədindən buraxılmayıb. Cinayətkarlığa qarşı mübarizə tədbirləri nəticəsində Azərbaycan Respublikası hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan 375 nəfər aşkarlanaraq aidiyyəti orqanlara təhvil verilib.

Narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə tədbirləri nəticəsində 17 kq 913 qram narkotik maddə, 2 269 ədəd psixotrop dərman aşkar edilərək götürülüb. Qaçaqmalçılıq fəaliyyətinə qarşı mübarizə çərçivəsində həyata keçirilmiş tədbirlər nəticəsində ümumi dəyəri təqribən 1 milyon 246 min 309 min manat olan qaçaqmalın, o cümlədən 1 ədəd pnevmatik tüfəng, 3 ədəd 9 mm patron, 4 ədəd qayıq, 1 ədəd gecə görmə cihazı, 2000 İİR rialı, 30,5 milyon Rusiya rublu, 6628 qutu pirotexniki vasitə, 5990 qutu siqaret, 197 ədəd mobil telefonun dövlət sərhədindən qanunsuz keçirilməsinin qarşısı alınıb. Dövlət sərhədlərimizin etibarlı mühafizəsinin təşkili istiqamətində tədbirlər davam etdirilir.

## Zeynal Nağdəliyev: "Qarşıda duran əsas vəzifə prezident seçkilərini ən yüksək meyarlara uyğun keçirməkdir"



Azərbaycanda hər dəfə seçkilərin şəffaf və demokratik prinsiplər əsasında keçirilməsində Prezident İlham Əliyevin siyasi iradəsi çox böyük rol oynayıb. Dövlətimizin başçısı seçkilərdə şəffaflığın təmini ilə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qarşısında çox ciddi vəzifələr qoyub.

AZƏRTAC xəbər verir ki, bu sözləri Prezidentin ərazi-təşkilat məsələləri üzrə köməkçisi Zeynal Nağdəliyev fevralın 15-də Mərkəzi Seçki Komissiyasında (MSK) dairə seçki komissiyalarının sədrləri üçün keçirilən seminar-müşavirədə deyib. Ölkəmizdə hökm sürən sabitliyin, təhlükəsiz mühitin də seçkiləri demokratik prinsiplər əsasında keçirməyi şərtləndirən amillər olduğunu deyən Zeynal Nağdəliyev qeyd edib ki, qarşıda duran əsas vəzifə prezident seçkilərini ən yüksək meyarlara uyğun keçirməkdir. İndiyə qədər keçirilən seçkilərdə əldə olunan təcrübə bizə imkan verəcək ki, qarşıdan gələn seçkiləri də ən yüksək səviyyədə keçirək.

## Məzahir Pənahov: Seçki prosesinin yüksək səviyyədə təşkili üçün bütün lazımi tədbirlər görüləcək



Bu seminar-müşavirənin davamı fevralın 19-21-də regionlarda dairə seçki komissiyalarının katibləri, üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün keçiriləcək. Təşkil olunan tədbirlərdə rayon icra hakimiyyəti başçılarının müavinləri, məhkəmə sədrləri, prokurorlar və polis rəisləri iştirak edəcəklər. AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov bildirib.

MSK-nın sədri qeyd edib ki, seminar-müşavirədə Seçki Məcəlləsinin tələbindən irəli gələn məsələlər yerli rəsmi qurumun rəhbərlərinə çatdırılır. Bununla yanaşı, MSK nümayəndələri də regionlarda təşkil edilən tədbirlərdə iştirak edəcəklər.

Seçki prosesinin yüksək səviyyədə təşkili üçün bütün lazımi tədbirlərin görüləcəyini qeyd edən Məzahir Pənahov bildirib ki, seçkiləri izləmək üçün müxtəlif ölkələrdən müşahidəçilər dəvət olunacaq. Həmçinin məntəqələrin 20 faizində vebkameralar quraşdırılıb ki, bu da seçki prosesinin şəffaf formada izlənməsinə kömək edəcək.

"Cəmiyyətdə baş verən proseslərin güzgüsü mətbuatdır. Azərbaycanda artıq kifayət qədər məsuliyyətli və peşəkar mətbuat formalaşıb", - deyən Məzahir Pənahov seçki prosesinin şəffaf və demokratik keçirilməsində KİV-in də müstəsna rolunun olduğunu bildirib.

## Arzu Rəhimov Qusarda vətəndaşlarla görüşüb



Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov fevralın 15-də Qusar şəhərində şimal bölgəsindən olan vətəndaşları qəbul edib. SİA-nın məlumatına görə, əvvəlcə Xidmət rəisi Arzu Rəhimov və Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, xatirəsini anıblar.

Daha sonra Arzu Rəhimov Heydər Əliyev Mərkəzində Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonlarından olan vətəndaşların müraciətlərini dinləyib. Qəbulda Xidmətin müvafiq şöbə və bölmələrində işə və ya həqiqi hərbi xidmətə qəbulla bağlı müraciətlər üstünlük təşkil edib. Vətəndaşlar, həmçinin hərbi xidmətə çağırılan övladlarının ailə vəziyyəti ilə əlaqədar olaraq yaşadıqları əraziyə yaxın hərbi hissələrdə qulluq keçmələri, səhhətində olan problemlərlə və digər məsələlərlə də bağlı müraciətlər ünvanlayıblar. Xidmətin rəisi qəbulda iştirak edən hər bir vətəndaşı diqqətlə dinləyib, onları narahat edən məsələləri araşdırıb, tövsiyə və tapşırıqlarını verib. Qaldırılan məsələlərin bəziləri yerindəcə həllini tapıb. Eyni zamanda, vətəndaşların Xidmətin fəaliyyət sahəsinə aid olmayan məsələlərlə bağlı, eləcə də şəxsi xarakterli müraciətləri müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

## Elmar Məmmədyarov Münxen Təhlükəsizlik Konfransında iştirak edəcək



Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov fevralın 16-17-də keçiriləcək Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniyaya işgüzar səfər edəcək. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Elmar Məmmədyarovun səfər çərçivəsində Münxen Təhlükəsizlik Konfransında çıxışı və bir sıra ikitərəfli görüşləri nəzərdə tutulub.

## İsrail Parlamenti qondarma "erməni soyqırımı"nı tanımaqdan imtina etdi!



İsrail Knesseti (Parlament) qondarma "erməni soyqırımı" ilə bağlı qanun layihəsini qəbul etməyib. RİA Novosti agentliyi xəbər verir ki, "Jerusalem post" nəşrinin yaydığı məlumata görə, Knesset "Eş Atid" partiyasının sədri Yair Lapidin dəstəklədiyi qondarma "erməni soyqırımı"nı tanımaq barədə qanun layihəsini ilkin səsvermədə rədd edib.

# Mərkəzi Seçki Komissiyasında dairə seçki komissiyalarının sədrləri üçün seminar-müşavirə keçirilib



***Fevralın 15-də Mərkəzi Seçki Komissiyasında (MSK) dairə seçki komissiyalarının sədrləri üçün seminar-müşavirə keçirilib.***

AZƏRTAC xəbər verir ki, seminar-müşavirəni MSK-nın sədri Məzahir Pənahov açaraq qeyd edib ki, dövlətimizin başçısı İlham Əliyevin prezident seçkilərinin aprelin 11-nə təyin olunması ilə bağlı Sərəncamında Mərkəzi Seçki Komissiyasına seçkilərin hazırlanıb keçirilməsinin təmin olunması həvalə edilib. Seçki Məcəlləsinin tələbinə görə, MSK seçkilərin hazırlanıb keçirilməsinə məsul orqan kimi fəaliyyətə başlayıb. "Artıq təqvim planını təsdiq etmişik. Bu plana uyğun olaraq fəaliyyətimizə başlamışıq. Bu seminar-müşavirə də təqvim planına uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın seçki komissiyalarına aid olan hissəsinin icrası ilə bağlı təşkil edilib. Bu, aşağı seçki komissiyalarının maarifləndirilməsi məqsədi daşıyır", - deyə Məzahir Pənahov vurğulayıb.

MSK sədri bildirib ki, aşağı seçki komissiyaları seçki prosesinin iştirakçısı rolunda çıxış edirlər. Seçki Məcəlləsinin tələbinə görə, Mərkəzi Seçki Komissiyası və aşağı seçki komissiyaları vətəndaşların səsvermə hüququnu təmin etmək, seçki subyektlərinin fəaliyyətini qanunun tələbinə uyğun idarə etmək, tədbirlərin qanunauyğun surətdə keçirilməsi üçün müxtəlif dövlət qurumları ilə əməkdaşlıq edir. Ona görə də burada aparılan müzakirələrin nəticəsi atılacaq sonrakı addımlar üçün əsas olmalıdır.

Məzahir Pənahov qeyd edib ki, Azərbaycanda mövcud olan sabitlik şəffaf və demokratik seçkilərin keçirilməsi üçün münbit şərait yaradır. Bütün seçki komissiyalarının fəaliyyətinin Seçki Məcəlləsinin tələbinə uyğun təmin edilməsi üçün lazımi şərait yaradılıb. Seçki Məcəlləsinin tələbinə görə bu şəraitin yaradılması icra orqanlarının vəzifəsidir. İndiyədək keçirilən seçkilərin nəticələri göstərir ki, ölkəmizdə dairə seçki komissiyalarının fəaliyyəti üçün hər cür şərait yaradılıb.

"Seçkilər hər bir ölkənin demokratik prinsiplərə nə dərəcədə malik olduğunun göstəricisidir. Biz çalışmalıyıq ki, Azərbaycanda keçirilən seçkilər həm ölkədə, həm də beynəlxalq aləmdə yüksək qiymətləndirilsin", - deyə MSK sədri vurğulayıb.

Prezidentin ərazi-təşkilat məsələləri üzrə köməkçisi Zeynal Nağdəliyev seminar-müşavirədə "Azərbaycan Respublikası Prezidentinin seçkilərinin hazırlanması və keçirilməsi prosesində yerli icra orqanlarının vəzifələri və onların seçki komissiyaları ilə qarşılıqlı fəaliyyəti" mövzusunda məruzə ilə çıxış edib.

Bu maarifləndirmə tədbirlərinin əhəmiyyətindən danışan Prezidentin köməkçisi bildirib ki, seminar-müşavirə qarşıdan gələn seçkilərin ən yüksək səviyyədə keçirilməsi üçün üzərimizə düşən vəzifələrin müzakirəsi baxımından önəmlidir. Ənənəvi olaraq təşkil edilən bu müşavirələr imkan yaradıb ki, prezident, parlament, bələdiyyə seçkilərinin, referendumun keçirilməsində hər dəfə keyfiyyətcə daha üstün səviyyəyə qalxaq. Azərbaycanın seçki təcrübəsi, əldə etdiyi nailiyyətlər nəinki cəmiyyətimizdə, eyni zamanda, hər dəfə ölkəmizdə seçkiləri izləyən beynəlxalq müşahidəçilər tərəfindən də yüksək qiymətləndirilir. Əlbəttə ki, əldə olunan bu nailiyyətlərdə yerlərdə seçkilərin keçirilməsinə məsul olan şəxslərin əməyi çox böyükdür.

Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycanda hər dəfə seçkilərin şəffaf və demokratik prinsiplər əsasında keçirilməsində Prezident İlham Əliyevin siyasi iradəsi çox böyük rol oynayıb. Dövlətimizin başçısı seçkilərdə şəffaflığın təmini ilə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qarşısında çox ciddi vəzifələr qoyub.

Ölkəmizdə hökm sürən sabitliyin, təhlükəsiz mühitin də seçkiləri demokratik prinsiplər əsasında keçirməyi şərtləndirən amillər olduğunu deyən Zeynal Nağdəliyev qeyd edib ki, bu gün Azərbaycan öz inkişaf yolu ilə gedir, ölkəmizdə vətəndaş həmrəyliyi mövcuddur. Məhz bu parametrlərinə görə Azərbaycan dünyada nümunəvi ölkələrdən biridir. Əlbəttə ki, Azərbaycanda demokratik prinsiplərin bərqərar olması, sabitlik, qazanılan nailiyyətlər seçkidən-seçkiyə seçicilərin fəallığının artması ilə müşahidə olunur. Ölkəmizin qazandığı bu uğurlar bizim üzərimizə düşən məsuliyyəti daha da artırır. Qarşıda duran əsas vəzifə prezident seçkilərini ən yüksək meyarlara uyğun keçirməkdir. İndiyə qədər keçirilən seçkilərdə əldə olunan təcrübə bizə imkan verəcək ki, qarşıdan gələn seçkiləri də ən yüksək səviyyədə keçirək.

Prezidentin köməkçisi qeyd edib ki, yerlərdə dairə seçki komissiyalarının fəaliyyəti üçün lazımi şəraitin yaradılması qanunvericiliklə icra hakimiyyəti orqanlarının üzərinə düşən vəzifədir. Dövlətimizin başçısı bu məsələni daim diqqət mərkəzində saxlayır. Artıq yerlərdə seçki məntəqələrində seçicilərin rahat, sərbəst, şəffaf şəraitdə səs verməleri, müşahidələrin aparılması üçün bütün lazımi şərait yaradılıb. Buna baxmayaraq, Mərkəzi Seçki Komissiyası ilə birgə yerlərdə monitorinqlər aparılır. Əgər hər hansı bir məsələ ortaya çıxarsa, o da mütləq şəkildə həllini tapmalıdır. Hər zaman seçkiqabağı kütləvi tədbirlərin, görüşlərin keçirilməsi üçün açıq və qapalı yerlər təyin olunur. Təbliğat-təşviqat kampaniyası başlayana qədər həmin yerlər müəyyənləşdirilir, hamı üçün bərabər şərait yaradılır. Kampaniya başlayana qədər həmin yerlər kütləvi informasiya vasitələrində yayımlanacaq.

Zeynal Nağdəliyev bildirib ki, səsvermə prosesində qanunvericiliyə ciddi əməl olunması təmin edilməlidir. Seçkilər azad, sərbəst, şəffaf, demokratik prinsiplər əsasında keçirilməlidir. Şəffaf seçkilərin keçirilməsi üçün ən vacib məsələlərdən birinin də dürüst seçici siyahılarının hazırlanması olduğunu qeyd edən Prezidentin köməkçisi bildirib ki, bu iş həmişə olduğu kimi, yüksək səviyyədə həyata keçirilir. "İnanıram ki, əvvəlki seçkilərin təcrübəsindən bəhrələnərək qarşıdan gələn prezident seçkilərini də ən yüksək səviyyədə təşkil edəcəyik. Hər birimizin vəzifəsi ondan ibarətdir ki, əldə olunmuş nailiyyətləri qoruyub saxlayaq və daha da artıraq", - deyə Zeynal Nağdəliyev vurğulayıb.

"Seçki hüququnun konstitusion əsasları. Azərbaycan Respublikası Prezidentinin seçkilərində seçki hüququnun realizə mexanizmləri" mövzusunda çıxış edən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev bildirib ki, ənənəvi olaraq bu cür seminar-müşavirələrin təşkili şəffaf və demokratik seçkilərin keçirilməsi işinə töhfə verir. Seçki prosesinin həssas məsələ olduğunu bildirən Konstitusiya Məhkəməsinin sədri deyib ki, bu prosesdə hər zaman yeniliklər tətbiq olunur. Əlbəttə ki, bu da şəffaflığın, ədalətin təmin olunması, qanunvericiliyin qorunması məqsədini daşıyır.

"Bu gün dünyada müxtəlif siyasi, iqtisadi proseslər gedir, bütün cəmiyyətlər heç də sabit inkişaf etmir. Əlbəttə ki, bu proseslər seçkilərə də təsirini göstərir. Azərbaycanda isə sabitlik hökm sürür, cəmiyyətimiz sabit şəkildə inkişaf edir. Bu da seçki prosesinin şəffaf və demokratik keçirilməsi üçün zəmin yaradır", - deyə Fərhad Abdullayev vurğulayıb.

Konstitusiya Məhkəməsinin sədri bildirib ki, Azərbaycanda seçkilərin şəffaf və demokratik prinsiplər əsasında keçirilməsi üçün indiyə qədər Mərkəzi Seçki Komissiyası tərəfindən böyük işlər görülüb. Hər bir dövlətdə seçkilər onun imicinə çox ciddi təsir göstərir. Bu baxımdan dövlətimiz və ictimaiyyətimiz hər zaman seçkilərə çox böyük önəm verir.

Fərhad Abdullayev qeyd edib ki, Azərbaycan Respublikasının Konstitusiyası, Seçki Məcəlləsi və bir sıra digər normativ hüquqi aktlar, həmçinin Mərkəzi Seçki Komissiyasında qəbul olunan təlimatlar və qərarlar seçki prosesinin qanunlar çərçivəsində şəffaf keçirilməsinin təmin edilməsinə yönəldilib. O deyib ki, müasir texnologiyaların imkanlarından istifadə etməklə seçki prosesinin izlənməsi və digər mütərəqqi addımlar təqdirəlayiqdir.

"Yerlərdə dairə seçki komissiyalarında seçicilərin konstitusion hüquqlarının təmini istiqamətində ciddi iş aparılmalıdır. Bu gün dünyada seçicilərin öz hüquqlarından istifadə etmələri ilə bağlı problemlər mövcuddur. Misal üçün, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin bir sıra qərarlarında aktiv seçki hüququnun məhdudlaşdırılması, xüsusilə məhkumların hüquqlarının məhdudlaşdırılması ilə bağlı qərarlar qəbul edilib. Bir sıra Avropa ölkələrində də bu məhdudiyyət var. Ancaq Azərbaycanda belə məhdudiyyət yoxdur və əlbəttə ki, bu, çox mütərəqqi bir addımdır. Azərbaycanda əhalinin bütün elektoratı, o cümlədən azadlıqdan məhrum edilən şəxslər də seçkilərdə iştirak edəcəklər", - deyə Fərhad Abdullayev vurğulayıb.

Daha sonra insan hüquqları üzrə müvəkkil Elmira Süleymanova "Seçki hüququ insan və vətəndaş hüquqlarından biri kimi" mövzusunda çıxış edib. Azərbaycan Xalq Cümhuriyyətinin Şərqdə ilk dəfə qadınlara səsvermə hüququnu verdiyini xatırladan müvəkkil bildirib ki, seçki prosesinin təməl prinsiplərindən biri də seçki hüquqlarının tə-

# Mərkəzi Seçki Komissiyasında dairə seçki komissiyalarının sədrləri üçün seminar-müşavirə keçirilib



min edilməsidir. Dövlətimizin başçısı İlham Əliyev tərəfindən 2011-ci il dekabrın 27-də imzalanmış "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda da seçki komissiyalarının maarifləndirilməsi məsələsi xüsusi qeyd edilib. Azərbaycanın Seçki Məcəlləsinin ildən-ilə təkmilləşdirildiyini vurğulayan E.Süleymanova bildirib ki, atılan addımlar, qəbul olunan qərarlar insanların seçki hüquqlarının qorunmasına xidmət edir. Ölkəmizdə hər bir insanın səsvermədə sərbəst, şəffaf şəkildə iştirakı üçün lazımi şərait yaradılıb. "Əvvəllər seçicilərin qeydiyyatda olduğu yer üzrə səs verməsi müəyyən problemlər yaradırdı. Nazirlər Kabinetinin müvafiq qərarından sonra seçicilərin qeydiyyatda olduğu yerdə səs verməsi tələb olunmur, hər bir vətəndaş harada olmasından asılı olmayaraq şəxsiyyət vəsiqəsini təqdim etməklə səs verə bilər ki, bu da seçicilərin seçkilərdə azad şəkildə iştirak etmələri üçün şərait yaradır", - deyə müvəkkil vurğulayıb.

E.Süleymanova qeyd edib ki, Azərbaycanda əlilliyi olan insanların da seçkilərdə iştirakı üçün lazımi şərait yaradılıb, seçki məntəqələrində panduslar quraşdırılıb. Mərkəzi Seçki Komissiyasında və dairə seçki komissiyalarında ekspert qruplarının da yaradıldığını bildirən ombudsman deyib ki, seçkilərdə hər kəsin seçki hüququnun təmin olunması üçün bütün işlər görülüb.

Azərbaycanda Ombudsman təsisatının yarandığı gündən ölkəmizdə keçirilən bütün seçkilərdə Mərkəzi Seçki Komissiyası, yerlərdə dairə seçki komissiyaları ilə əlaqəli fəaliyyət göstərdiyini deyən müvəkkil bildirib ki, səsvermə günü MSK-nın İnformasiya Mərkəzində bütün lazımi şərait yaradılır. Həmçinin Ombudsman təsisatının əməkdaşları bölgələrdə seçkinin gedişini müşahidə edirlər. Toplanmış məlumatlar da MSK-da yaradılmış İnformasiya Mərkəzindən ölkə ictimaiyyətinə çatdırılır.

Ədliyyə nazirinin müavini Azər Cəfərov "Azərbaycan Respublikası Prezidentinin seçkilərində ədliyyə orqanlarının və məhkəmələrin rolu və vəzifələri" mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, Azərbaycanda seçkilər seçki komissiyaları tərəfindən həyata keçirilsə də, qanunvericilik bir sıra digər orqanların da bu sahədə vəzifələrini müəyyən edib. Ədliyyə orqanlarının da seçkilərin təşkilində və keçirilməsində müəyyən fəaliyyət istiqamətlərinin olduğunu bildirən nazir müavini deyib: "Burada söhbət seçki prosesinin normativ tənzimlənməsindən, sənədlərin təsdiqlənməsindən, seçici siyahılarının tərtib edilməsindən, müxtəlif ekspertizaların keçirilməsindən, həmçinin seçki komissiyaları ilə birlikdə penitensiar müəssisələrdə, yəni, cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında seçkilərin təşkilindən gedir".

A.Cəfərov bildirib ki, vətəndaşların aktiv seçki hüququnun təmin edilməsi sahəsində ədliyyə orqanlarının üzərinə düşən vəzifələrdən ən əsası penitensiar xidmətdə seçkilərin təşkilidir. Artıq 20 ildən çoxdur ki, həbs olunmuş şəxslərin və məhkumların seçkilərdə iştirakını təmin etmək məqsədilə MSK və dairə seçki komissiyaları ilə sıx əməkdaşlıq həyata keçirilir. Həmçinin səsvermə günü xidmətdə olan əməkdaşlar, hərbi qulluqçular da penitensiar müəssisələrdə səs verirlər. Həbs edilmiş və cəza çəkən şəxslərin seçkilərdə iştirakının təmini üçün artıq kifayət qədər təcrübə formalaşıb və bu prosesin düzgün və ədalətli şəkildə aparılması ilə bağlı bütün mexanizmlər mövcuddur. Penitensiar müəssisələrdə MSK və dairə seçki komissiyalarının iştirakı ilə seçki komissiyası yaradılır, müvafiq maarifləndirmə işləri aparılır. Seçki ilə bağlı televiziyalarda çıxışların cəza çəkən şəxslər tərəfindən izlənilməsinə şərait yaradılır. KİV təmsilçilərinin, beynəlxalq müşahidəçilərin bu məntəqələrdə müşahidəsi üçün müvafiq qaydada şərait yaradılır. Səsvermə günü seçki komissiyalarının üzvləri penitensiar müəssisələrin ərazilərində sərbəst hərəkət edə bilirlər.

Qeyd edilib ki, ədliyyə orqanlarının üzərinə düşən vəzifələrdən biri də sənədlərin yoxlanılması məsələsidir. İmza vərəqəsindəki imzaların düzgünlüyünün yoxlanılması üçün seçki komissiyaları işçi qrupları yaradırlar. Ədliyyə Nazirliyi də bu qruplarda yaxından təmsil olunur.

Baş prokurorun birinci müavini Rüstəm Usubov "Seçki hüquqlarının qorunmasında prokurorluq orqanlarının rolu və vəzifələri" mövzusunda çıxış edib. Bildirib ki, Azərbaycanda hüquqi dövlətin əsasları möhkəmləndirilib, demokratik ənənələr davam etdirilib, insanların öz iradəsini azad və sərbəst şəkildə ifadə etmələrinə imkan yaradan demokratik seçki və referendumların keçirilməsi üçün əlverişli mühit və zəruri əsaslar yaradılıb. Bu gün ölkəmizin ictimai-siyasi həyatında əlamətdar hadisə olan prezident seçkilərinin astanasındayıq. Azərbaycanda hökm sürən sabitliyin, demokratik prinsiplərə əsaslanan seçki qanunvericiliyinin mövcudluğu tam əminliklə deməyə əsas verir ki, aprelin 11-də prezident seçkiləri şəffaf, demokratik şəkildə keçiriləcək.

Seçkilərin keçirilməsində prokurorluq orqanlarının üzərinə düşən vəzifələrdən danışan R.Usubov deyib: "Bu vəzifələr, ilk növbədə, prokurorluq tərəfindən seçkilərdə iştirak edən vətəndaşların seçki hüquqlarının təmini, qanunla müəyyən edilmiş hallarda seçkidə iştirak hüquqlarının və seçki qanunvericiliyinin tələblərinin pozulmasına yol vermiş şəxslərin məsuliyyətə cəlb edilməsi ilə bağlıdır. Bununla əlaqədar olaraq, Respublika Baş Prokurorluğu MSK və digər seçki komissiyaları ilə səmərəli şəkildə əməkdaşlıq etməklə qanunla üzərinə düşən vəzifələri yerinə yetirməyə çalışır. Seçkilər və referendumla bağlı prokurorluq orqanlarının vəzifələri əsasən daxil olmuş şikayət və müraciətlərə baxılması ilə əlaqədar olur".

Qeyd edilib ki, prezident seçkilərində seçki qanunvericiliyinin tələblərinin pozulmasına yol vermiş şəxslərin məsuliyyətə cəlb olunması ilə bağlı prokurorluq orqanlarının qarşısında qanunla müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi üçün müvafiq ekspert qrupları ilə qarşılıqlı səmərəli və operativ əlaqələrin təmini istiqamətində bütün zəruri tədbirlər həyata keçirilib. Belə ki, Baş Prokurorluqda da seçkilərlə bağlı işçi qrupu yaradılıb. Həmin işçi qrupu ərizə və şikayətlərə baxılmasına bilavasitə cavabdehlik daşıyır.

Daxili işlər nazirinin müavini Oruc Zalov "Azərbaycan Respublikası Prezidentinin seçkilərində Daxili İşlər Nazirliyi orqanlarının rolu və fəaliyyət istiqamətləri" mövzusunda çıxış edib. Nazir müavini bildirib ki, aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə bağlı Daxili İşlər Nazirliyində müvafiq tədbirlərə başlanılıb. Ayrı-ayrı strukturlar qarşısında müvafiq vəzifələr qoyulub. Ötən illər ərzində insanların hüquq və azadlıqlarının daha da yüksək səviyyədə təmini məqsədilə müvafiq fərman və sərəncamlar imzalanıb, Azərbaycanın Seçki Məcəlləsinə, İnzibati Xətalar, Cinayət-Prosessual məcəllələrinə, sərbəst toplaşmaq haqqında Qanuna və digər normativ hüquqi aktlara əlavə və dəyişikliklər edilib. 11 aprel seçkilərinin sabit və əmin-amanlıq şəraitində keçirilməsi üçün daxili işlər orqanlarının üzərinə düşən vəzifələrin tam həcmdə və layiqincə yerinə yetirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Nazir müavini deyib: "Bu gün Azərbaycan dünyanın ən sabit və təhlükəsiz ölkələrindəndir. Qeyd etmək lazımdır ki, xalq-iqtidar birliyi ölkəmizdə sabitliyi şərtləndirən əsas amillərdəndir. Sabitlik xalqımızın hakimiyyətə olan inamının nəticəsidir".

O.Zalov qeyd edib ki, prezident seçkilərinin qanunvericiliyə uyğun təhlükəsiz şəraitdə keçirilməsi, səsvermə günü vətəndaşların öz iradəsini sərbəst ifadə etmələri üçün əsas şərt olan ictimai asayişin qorunmasının təşkili məqsədilə nazirlik müvafiq tədbirlər planı hazırlayıb. Daxili İşlər Nazirliyinin bütün orqanları qarşıya qoyulan vəzifələrin vicdanla və təhlükəsiz həyata keçirilməsi üçün səfərbər olub. Bildirilib ki, təbliğat və təşviqat kampaniyaları dövründə toplantı və görüşlərin keçirildiyi yerlərdə ictimai təhlükəsizlik təmin olunacaq. Eyni zamanda, təbliğat və təşviqat kampaniyaları vaxtı, səsvermə günü və səsvermədən sonra razılaşdırılmamış, qeyri-qanuni siyasi aksiyaların qarşısı qətiyyətlə alınacaq. Belə hallar müəyyən olunarsa qanunvericiliyə müvafiq qaydada tədbirlər görüləcək. "Seçki bülletenləri seçki məntəqələrinə gətirildikdən sonra həmin məntəqələr polis tərəfindən tam mühafizəyə götürüləcək", - deyə nazir müavini vurğulayıb.

Sonra Mərkəzi Seçki Komissiyası Katibliyinin müdiri Rövzət Qasımov "Səsvermə prosesi başa çatdıqdan sonra DSK və MnSK-ların üzərinə düşən əsas vəzifələr", Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzinin müdiri Fərid Orucov "Dövlət avtomatlaşdırılmış informasiya sisteminin yeni funksional imkanları və onlardan istifadə qaydaları", Mərkəzi Seçki Komissiyası Katibliyinin ümumi şöbəsinin müdiri Elşən Əsgərov "Dairə seçki komissiyaları və məntəqə seçki komissiyalarında kargüzarlığın təşkili" mövzularında çıxış ediblər. Qeyd edək ki, seminar-müşavirənin davamı fevralın 19-21-də regionlarda dairə seçki komissiyalarının katibləri, üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün keçiriləcək.

# Serjikin baş nazir olmaq arzusu baş tutacaqmı?

*"Yelk" blokunun lideri vətəndaş itaətsizliyinin baş qaldıracağını iddia edib*

***Ermənistan parlamentində fəaliyyət göstərən "Yelk" blokunun fraksiya rəhbəri, müxalifətçi deputat Nikol Paşinyan bu günlərdə parlament iclasında bəyan edib ki, əgər Serj Sarkisyan öz vədinə sadiq qalaraq, baş nazir postuna namizədliyini irəli sürərsə, bu, Ermənistanda daxili siyasi vəziyyəti kəskin şəkildə gərginləşdirəcək. Bu barədə Ermənistanın "1in.am" saytının analitik yazarı Məryəm Qriqoryan yazır. Erməni analitiki Paşinyanın digər maraqdoğurucu bəyanatını da xatırladaraq yazır ki, müxalifətçi deputat parlament brifinqində Serj Sarkisyanın gələcəyinin, məhz Ermənistan vətəndaşlarının əlində olduğunu deyib.***



## Politoloq Armen Bədəlyan: "Bütün bunlar nəticəsiz qalacaq"



M.Qriqoryan siyasət və seçki texnologiyaları üzrə ekspert Armen Bədəlyanın da fikirlərini önə çəkərək yazır ki, əgər Serj Sarkisyan baş nazir olmaq üçün qarşısına məqsəd qoyubsa, nə erməni ictimaiyyəti, nə də müxalifət onun bu planının qarşısını ala bilməyəcək. "Minə yaxın insan etiraz nümayişlərinə çıxa, mitinqlər keçirə və yürüşlər təşkil edə bilər, lakin bütün bunlar nəticəsiz qalacaq. Bu, mövcud prezidentin baş nazir olması faktına təsir göstərməyəcək"-deyə M.Qriqoryan A.Bədəlyanın ifadələrini xatırladıb.

Erməni analitik Bədəlyanın fikirlərinə istinad edərək yazır ki, ekspertə görə, müxalifət qüvvələri konstitusiya islahatları ilə bağlı müzakirələr gedərkən bu barədə düşünməliydilər. "Həmin vaxt fikirləşmək lazım idi. Bir çoxları, eləcə də mən, qeyd edirdik ki, konstitusiyanın dəyişdirilməsinin məqsədi birdir - mövcud prezident hakimiyyətdə qalsın. Fəaliyyətdə olan konstitusiya prezidentin üçüncü dəfə namizədliyini irəli sürməsinə imkan vermirdi"-deyə Bədəlyan analitiklə söhbətində bildirib. Siyasət və seçki texnologiyaları üzrə ekspert, həmçinin, deyib ki, guya bu, parlament sistemidir, ancaq de-fakto super baş nazir sistemidir: "Ermənistanda seçki institutu mövcud deyil, maliyyə resursları hesabına faizlər keçir və bu da, hazırkı siyasi güc olaraq, Ermənistan Respublikaçı Partiyasına dəfələrlə baş nazir seçdirmək imkanını verir. Bax, beləcə, 20 il ard-arda ola bilər".

Bədəlyan onu da bildirib ki, digər siyasi güclər bu məsələdə nə isə etməkdə gücsüzdürlər. "İctimaiyyət hakimiyyətin formalaşmasında çoxdan iştirak imkanlarını itirib"-deyə erməni eksperti qeyd edib.

## Sosioloq Karen Sarqsyan: "Bəlkə də, çoxlarının xoşuna gəlməyəcək, ancaq iddia edə bilərəm ki..."

Digər erməni eksperti, sosioloq Karen Sarqsyan isə hesab edir ki, dəyişikliklər ola bilər, ancaq hakimiyyətin daxili sistemi üzrə. Sosioloq erməni müxalifətinin yalnız "Sarukyan" blokunda və iki koalisiya siyasi güclərində olduğu qənaətindədir. Onun sözlərinə görə, yalnız onlarda lider mövcuddur, digər müxalifətçi siyasi qurumlarda lider anlayışı, ümumiyyətlə yoxdur. Buna baxmayaraq, K.Sarqsyan hesab edib ki, bu müxalifət də heç nə edə bilməyəcək: "Bəlkə də çoxlarının xoşuna gəlməyəcək, ancaq iddia edə bilərəm ki, əgər Serj Sarkisyan baş nazir seçilərsə, mən heç də təəccüblənməyəcəyəm".

K.Sarqsyan "Yelk" blokunun lideri Paşinyanın iddialarına da münasibətini bildirərək deyib ki, əgər adıçəkilən blok bundan sonra da eyni tərzdə bəyanatlarla çıxış edəcəksə, hakimiyyətin səbir kasası dolacaq və blok bu günə qədər əldə etdiyi az-çox reytinqini itirməli olacaq. "Mənə elə gəlir ki, "Yelk" bloku daha ciddi məsələlərlə məşğul olmalıdır"-erməni sosioloq bildirib.

## Siyasi publisist Anuş Sedrakyan Ermənistandakı prosesləri "təhlükəli tendensiya" adlandırıb



Nəzərə alsaq ki, erməni ictimaiyyəti yoxsulluğun ən son həddində çabalayır, insanlar kütləvi şəkildə ölkə hüdudlarını tərk edir, o cümlədən, bu ölkənin ordusunda xidmət etmək istəməyən minlərlə gənc mövcuddur, bu zaman parlament seçkiləri ərəfəsində vəziyyətin nəzarətdən çıxaraq, küləvi itaətsizliyə çevriləcəyini də istisna etmək olmaz. Məsələn, politoloq və siyasi publisist Anuş Sedrakyan adıçəkilən erməni media qurumuna müsahibəsində deyib ki, "Serj Sarkisyan heç də daxili hissiyyatlarına qapılmamalı, əskinə, kifayət qədər ehtiyatlı olmalıdır".

Politoloq baş verən prosesləri "təhlükəli tendensiya" adlandırıb.

***Rövşən RƏSULOV***

## "Sarkisyanın siyasəti Ermənistanı acınacaqlı duruma salıb"



"Bu gün Ermənistandakı sosial-iqtisadi durum hər kəsə bəllidir. Sarkisyan rejiminin yürütdüyü siyasət nəticə etibarilə Ermənistanı acınacaqlı bir duruma salıb". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Elçin Mirzəbəyli deyib.

Siyasi şərhçinin sözlərinə görə, son dövrlərdə də Ermənistanı himayə edən güclərin iqtisadi problemləri, eyni zamanda diasporanın bu ölkəyə, rejimə daha vəsait ayırmaq istəməməsi nəticə etibarilə onsuz da acınacaqlı olan vəziyyəti daha da kəskin bir həddə çatdırıb: "Digər tərəfdən ölkəni tərk edən əsasən gənclərdir. Gənclərin işğalçı ordunun tərkibində xidmət etmək istəməmələri, Azərbaycan Ordusunun potensialı nəticə etibarilə işğalçı ölkə vətəndaşlarının ölkəni daimi tərk etməsinə gətirib çıxarır. Ermənistan özünün işğalçı siyasətinə davam etdikcə Ermənistanın təcridolunma siyasəti daha da güclənəcək. Nəticə etibarilə bu Ermənistanın tamamilə boşalmasına gətirib çıxaracaq. Əgər Sarkisyan rejimi ilə Ermənistanın indiki hakimiyyəti siyasəti davam etdirəcəklərsə, şübhəsiz ki, o zaman ermənisiz Ermənistan qalacaq".

Qeyd edək ki, Emənistan əhalisinin sayı 2018-ci ilin 1 yanvarında 2 972,9 milyon nəfər olub. Statistika Xidməti bu göstəricinin keçən ilin analoji dövrü ilə müqayisədə 13,2 min nəfər az olduğunu bildirib. Buna səbəb mənfi miqrasiya saldosunun əhalinin artım tempini üstələməsidir. Ölkədə həmçinin artım 13,9 min nəfərdən 10,3 min nəfərə qədər aşağı düşüb. 2017-ci il ərzində Ermənistanda doğuşların sayı 7,1% azalıb, ölüm halları isə 3% artıb.

## BAXCP rəsmisi: ""Trollar" anlayışını Azərbaycana Əli Kərimli gətirib"



"Ümumiyyətlə, müxalifətin sosial şəbəkələrdə 11 aprel 2018-ci ildə ölkəmizdə keçiriləcək növbədənkənar prezident seçkilərini boykot etməsi heç bir əhəmiyyət kəsb etmir". Bunu SİA-ya Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədrinin müavini Niyaməddin Orduxanlı deyib.

Sədr müavininin sözlərinə görə, onların yazdıqları statuslar, çağırışlar yalnız öz tərəfdarları tərəfindən dəstəklənir: "Yəni bunu da əsasən özlərinin yaratdığı saxta profillər vasitəsilə həyata keçirirlər. "Trollar" anlayışını Azərbaycana Əli Kərimli gətirib. Saxta profillərin idarə olunması, ictimaiyyətdə saxta fikir formalaşması məhz Əli Kərimlinin xidmətidir. Bu gün də bu şəxs öz ənənəsini davam etdirir. Bu gün cənab Prezident İlham Əliyevi dəstəkləyən insanlar kifayət qədərdir. Həmin dəstəkləyən insanların da sosial şəbəkələrdə öz rəsmi və profili vardır. Belə olan halda böyük dəstək itirəcəyini düşünən Əli Kərimli konkret olaraq narahatçılığından şantaj yoluna əl atıb. Guya sosial şəbəkələrdə olan profillər saxtadır və s. Bunun qətiyyən əsası yoxdur. Orada olan insanlar real şəxslərdir. Sadəcə olaraq Əli Kərimli onların kütləviliyini görüb şantaj etmək istəyir. Əli Kərimli, radikal müxalifət, Müsavat sosial şəbəkədə çox az şəxslərlə təmsil olunur. İndiki zamanda bunlar minlərin, on minlərin qarşısında aciz qalıblar. Bu gün faktdır ki, on minlərlə sosial şəbəkə üzvləri açıq şəkildə cənab İlham Əliyevə öz dəstəyini nümayiş etdirir. Əli Kərimlinin, radikal müxalifətin, Müsavatın boykot taktikası seçki marafonuna hər hansı bir təsir etməyəcək. Əli Kərimli 25 ildə bir dəfə də olsun namizəd olmayıb".

## "Ermənistan bundan sonra da təcrid olunacaq"



"Azərbaycan "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əsasını təşkil edən, Qəzvin-Rəşt dəmir yolunun davamı olan Astara(İran)-Astara(Azərbaycan) dəmir yolu xətti İran ilə Rusiyanın dəmir yolları sistemlərini Azərbaycan vasitəsilə birləşdirəcək. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Musa Qasımlı deyib.

Onun sözlərinə görə, hər bir layihdə olduğu kimi bu layihədə də Ermənistan kənarda qalacaq: "Ermənistanın kənarda qalmasının səbəbi Yerevanın təcavüzkarlıq siyasətindədir. Əgər Ermənistan Azərbaycan ərazilərinin bir hissəsini işğal etməsəydi, ermənilərin sosial-iqtisadi şəraiti fərqli olardı. Bu dəhlizin işə düşməsi Azərbaycana böyük gəlirlər gətirəcək. Ölkəmizin strateji mövqeləri güclənəcək, beynəlxalq əhəmiyyəti artacaq, əhalinin həyat şəraiti daha da yaxşılaşacaq".

## Niyazi Səfərov: "Hər bir iqtisadi regionun potensialına uyğun sənaye zonaları yaradılacaq"



Hər bir iqtisadi regionun potensialına uyğun olaraq sənaye zonaları yaradılacaq. AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov bildirib. Nazir müavini qeyd edib ki, Azərbaycanda 5 sənaye parkı, 4 sənaye məhəlləsi yaradılıb. Ölkənin digər rayonlarında da sənaye zonalarının yaradılması ilə bağlı işlər aparılır, qiymətləndirilmələr həyata keçirilib. Hər bir iqtisadi regionun potensialına uyğun olaraq sənaye zonalarının yaradılması işləri icra olunacaq. İqtisadiyyat Nazirliyi yeni sənaye zonalarının yaradılması ilə bağlı təkliflər hazırlayır.

# Ölkəmizdə sitrus meyvəçiliyinin inkişafına dövlət dəstəyi gücləndirilir

*“Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı”nın icrası nəticəsində 2025-ci ilədək sitrus meyvələri istehsalının həcmi 100 min tona çatdırılacaq*



***Qeyri-neft sektorunun dinamik inkişafı ilə bağlı reallaşan tədbirlər, bir çox sahələrdə olduğu kimi, kənd təsərrüfatının inkişafında da mühüm göstəricilərin əldə olunması ilə nəticələnib. Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə kənd təsərrüfatının inkişafı ilə bağlı imzaladığı fərman və sərəncamlar bu sahənin inkişafına yönəlib. Artıq kənd təsərrüfatı sahələrində, pambıqçılığın, taxılçılığın, baramaçılığın, tütünçülüyün və s. inkişafı ilə bağlı kifayət qədər nəticələr əldə olunub. Bu statistik göstəricilərdə belə əksini tapıb. Prezident İlham Əliyevin vurğuladığı kimi, ölkəmizdə kənd təsərrüfatı sahələrindən olan pambıqçılığın inkişafı rekord templərlə gedir: “2015-ci il illə 2017-ci ili müqayisə etsək, görərik ki, 2015-ci ildə 35 min ton, 2017-ci ildə isə 207 min ton pambıq tədarük edilib. Pambıqçılıqla məşğul olan zəhmətkeşlərin sayı 200 minə çatıbdır”.***

Dövlət başçısı bildirib ki, baramaçılıq 2015-ci ildə 236 kiloqram barama tədarük olunmuşdusa, keçən il bu rəqəm 244 tona çatıb. Bu il təqribən 400 ton barama tədarük edilməsi nəzərdə tutulub. 2016-2017-ci illərdə 1 milyon 800 min tut tingi əkilmişdisə, 2018-ci ildə isə, 3 milyon tingin əkilməsi nəzərdə tutulub. Tütünçülük də isə, 2016-cı ildə 3 min 500 ton, 2017-ci ildə isə, 5 min 200 ton quru tütün tədarük edilibdir. Bir il ərzində istehsal 1,5 dəfə artmışdır. Bütün sahələrdə bu artım müşahidə edilir. Elə üzümçülüklə bağlı rəqəmlər də bu atrımı göstərir. 2016-cı ildə 136 min ton üzüm tədarük edilmişdisə, 2017-ci ildə bu rəqəm 152 min tona çatıb. Kənd təsərrüfatının, demək olar ki, bütün sahələrində çayçılıq, çəltikçilik və s. əldə olunun uğurların məntiqi nəticəsidir. Sözsüz ki, dövlət dəstəyi, ölkəmizin əlverişli torpaq-iqlim şəraiti, mövcud işçi qüvvəsi, emal sənayesi müəssisələrinin xammala tələbatının yerli istehsal hesabına ödənilməsi imkanları və mövcud ixrac potensialı aqrar sahənin daha da inkişafına əlverişli şərait yaradır.

Son illərdə əhalinin ərzaq məhsullarına olan tələbatının davamlı şəkildə ödənilməsi məqsədi ilə qəbul edilmiş dövlət proqramlarının icrası, aqrar sahənin ixracyönümlü məhsullarının istehsalının təşviqi istiqamətində həyata keçirilən tədbirlər ölkədə ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafında mühüm nəticələrin əldə olunmasına səbəb olub. Azərbaycan Respublikası Prezidentinin “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”, “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı”, “Azərbaycan Respublikasında yay və qış otlaqlarından səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair Dövlət Proqramı”, “Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dövlət dəstəyi haqqında” Sərəncamı, “Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı” və s. bu sahənin inkişafına yeni yollar açıb. Prezident İlham Əliyevin Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında qeyri-neft sektorunun inkişafı istiqamətində və ərzaq təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edən sahələrdən biri kimi kənd təsərrüfatı məhsullarının istehsalı və emalına xüsusi diqqət yetirilməsinin nəzərdə tutulması da bu sahəyə göstərilən diqqətin daha bir nümunəsidir.

Azərbaycan Prezident İlham Əliyevin “Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında 13.02.2018-ci il tarixli Sərəncamı kənd təsərrüfatında özünəməxsus yeri olan sitrus meyvəçiliyinin inkişafına yönələn Səneddir. Dövlət Proqramı sitrus meyvəçiliyinin inkişafı, əhalinin sitrus məhsullarına tələbatının ödənilməsi, kənd əhalisinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədi daşıyır. Sənəddə göstərilir ki, sitrus meyvə bitkilərinin becərilməsi üçün ölkəmizin cənub bölgəsində əlverişli təbii iqlim şəraitinin və ənənələrin mövcudluğu, bu sahənin yüksək iqtisadi səmərəliliyə və ixrac potensialına malik olması sitrusçuluğun inkişaf etdirilməsini zəruri edir. “Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” dövlət başçısının Sərəncamına uyğun olaraq, hazırlanmış Dövlət Proqramı ölkəmizdə sitrus meyvəçiliyinin inkişafına dövlət dəstəyinin gücləndirilməsinə, bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsinə və sitrus meyvələrinin istehsalının stimullaşdırılmasına yönəldilib.

### SİTRUS MEYVƏÇİLİYİNİN İNKİŞAFI ÜÇÜN ƏLVERİŞLİ MÜHİT YARADILIB

Dövlət Proqramında qeyd olunur ki, sitrus bitkiləri qrupuna aid olan naringi, portağal və limon müvafiq xarici mühit və xüsusi texnoloji qulluq tələb etdiyi üçün Azərbaycanda məhdud ərazidə becərilməsinə baxmayaraq, sitrus meyvələrinin istehsalı ölkənin kənd təsərrüfatının inkişafında böyük əhəmiyyət kəsb edir. Azərbaycanda sitrus meyvəçiliyinin inkişafının əsası 1930-cu ildə Astara rayonunda ümumi sahəsi 800 hektar olan Subtropik Bitkilər Sovxozunun yaradılması ilə qoyulmuş və onun 500 hektara yaxın ərazisində limon, naringi, portağal, feyxoa, çay, nəcib dəfnə və s. bitkilərin becərilməsinə başlanılmışdır. 1930-cu ildən etibarən ölkədə sitrus meyvə bağları sahələrinin planlı surətdə artırılmasına başlanılmış, bu sahənin inkişafı 70-80-ci illərdə daha da sürətlənmişdir. 90-cı illərin əvvəllərində kənd təsərrüfatının digər sahələrində olduğu kimi, sitrus meyvəçiliyi sahəsində də tənəzzül yaşanmış, sitrus meyvə bağlarının bir qismi ləğv edilmişdir. 2009-cu ildən etibarən kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyinin daha da gücləndirilməsi sitrus meyvə bağlarının sürətlə genişlənməsinə səbəb olmuşdur. “Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Prezidentinin Sərəncamı sitrus meyvəçiliyinin inkişafı üçün əlverişli mühit yaratmışdır. Belə ki, 2017-ci ildə ölkədə sitrus bağlarının ümumi sahəsi 2010-cu illə müqayisədə 1,9 dəfə artaraq, 3191,2 hektar təşkil etmiş, məhsul istehsalı isə 2,2 dəfə artaraq, 42,8 min tona çatdırılmışdır. 2017-ci ildə ölkəmizə 18,9 milyon ABŞ dolları dəyərində 30,6 min ton sitrus meyvələri, o cümlədən, 12,6 min ton portağal, 11,9 min ton limon, 4,6 min ton naringi, 1,5 min ton qreypfrut və digər sitrus meyvələri idxal edilmişdir.

Dövlət Proqramının məqsədi ölkədə sitrus meyvələrinə olan tələbatın daha dolğun ödənilməsi, istehsal edilmiş məhsulların ixracının artırılması və kənd əhalisinin məşğulluq səviyyəsinin və maddi rifahının yüksəldilməsi üçün sitrus meyvəçiliyinin inkişafını stimullaşdırmaqdan ibarətdir. Qeyd olunan Sənədə əsasən, sitrus meyvəçiliyinin inkişaf etdirilməsi üzrə institusional tədbirlərin həyata keçirilməsi, sitrusçuluq sahəsində standartların təkmilləşdirilməsi və beynəlxalq tələblərə uyğunlaşdırılması, sitrus meyvəçiliyi sahəsində infrastruktur təminatının yaxşılaşdırılması, sitrus meyvəçiliyi sahəsində yerli və xarici investisiyaların cəlb edilməsinin təşviqi və s. nəzərdə tutulur. Dövlət Proqramında sitrus meyvəçiliyi sahəsində fəaliyyət göstərən kiçik ailə kəndli və fermer təsərrüfatlarının könüllülük əsasında kooperasiyasının təşviqi də nəzərdə tutulur. Dövlət Proqramı ölkədə bu istiqamətdə aparılan işlərin daha da sürətləndirilməsinə təkan verəcəkdir. Dövlət Proqramının icrası nəticəsində, 2025-ci ilədək sitrus meyvələri istehsalı həcminin 100 min tona çatdırılması nəzərdə tutulur.

Bütün bunlar, həyata keçirilən islahatlar, dövlət proqramlarının icrası balanslaşdırılmış sosial-iqtisadi siyasətin təzahürüdür.

***Nəzakət ƏLƏDDİNQIZI***

## 14 ildə Azərbaycanda bank aktivlərinin ümumi həcmi 27 dəfəyə yaxın artıb

14 ildə Azərbaycanda bank aktivlərinin ümumi həcmi 27 dəfəyə yaxın artıb. AZƏRTAC xəbər verir ki, bu barədə fevralın 14-də Azərbaycan Banklar Assosiasiyasının sədri Zakir Nuriyev “Regionların inkişafında sahibkarlığın rolu” mövzusunda keçirilən konfransda deyib. O bildirib ki, hesabat dövründə kredit portfelinin həcmi 19 dəfə, bank sektorunun depozit bazası 28 dəfə, əhalinin əmanətləri isə 30 dəfəyə yaxın artıb. Ümumilikdə kapitalın həcmində 20 dəfəyə yaxın artım müşahidə olunub”. Z.Nuriyev qeyd edib ki, 188 milyon manatdan başlayan balans kapitalının həcmi bu gün 3,7 milyard manata çatıb.

## Bu il 70 min ton pambıq istehsalı nəzərdə tutulub

Bu il 70 min ton pambıq istehsalı nəzərdə tutulub. AZƏRTAC xəbər verir ki, bu barədə fevralın 14-də Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının vitse-prezidenti Zakir Əzimov “Regionların inkişafında sahibkarlığın rolu” mövzusunda keçirilən konfransda deyib. O bildirib ki, 2018-ci ildə 35 hektar ərazidən 70 min ton pambıq istehsalı nəzərdə tutulub. Qarşıdakı 5 il ərzində isə bu rəqəmin 100 min tona çatdırılması planlaşdırılır.

# Nazarbayevin ABŞ turnesi:
# Qazaxıstanın geosiyasi həmləsi

***Nursultan Nazarbayevin bu il yanvarın 16-18-də Amerikaya rəsmi səfəri ilə bağlı müxtəlif fikirlər ifadə edilir. Bu hadisəyə yanaşmalar müxtəlifdir. Ancaq Qazaxıstan dövlət başçısının müzakirə etdiyi məsələlərə obyektiv və ədalətli yanaşanda bir sıra maraqlı və aktual məqamları görmək mümkündür. Hər şeydən öncə, N.Nazarbayev Amerika prezidenti ilə bütövlükdə Mərkəzi Asiya üçün aktual olan məsələləri müzakirə edib. Həmin sırada iqtisadi-ticarət, energetika, nəqliyyat və təhlükəsizliklə bağlı məsələlərə daha çox diqqət yetirilib.***

Bu istiqamətdə baza kimi "Səmərqənd bəyannaməsi" götürülüb. Bu, onu təsdiq edir ki, Astana ardıcıl xarici siyasət yeridir. Ekspertlər həmin çərçivədə Vaşinqtonda tərəflərin 20-dən çox saziş imzalamasına diqqət çəkirlər. Bu, demək olar ki, strateji tərəfdaşlıq səviyyəsi anlamına gəlir. Müqavilələrdə nəzərdə tutulan maliyyənin həcmi də bu tezisin əsaslı olmasını sübut etməkdədir - 7,5 milyard ABŞ dolları! Buraya amerikalı iş adamlarının Qazaxıstana sərmayə qoyması da daxildir. Bu kimi faktların fonunda N.Nazarbayevin ABŞ səfərinin geniş təhlilinə ehtiyac duyulmaqdadır.

## Səmərqənddən başlayan yol: Astana daha irəli gedir

Qazaxıstan prezidenti Nursultan Nazarbayevin ABŞ-a səfərinə Amerika, Rusiya və Qazaxıstan ekspertləri böyük maraq göstərdilər. KİV qazax liderin apardığı müzakirələri və alınan qərarları geniş müzakirə etdi. Bu cür reaksiyanı mütəxəssislər gözlənilən hesab edirlər. Bir neçə səbəbdən həmin qənaətin əsaslı olduğunu ifadə edirlər.

Doğrudan da, Qazaxıstanın geosiyasi mövqeyi, ölkə rəhbərliyinin uzun illərdir yeritdiyi stabil və balanslı xarici siyasət, dövlət başçısının siyasətçi kimi ciddi nüfuza sahib olması və demokratik islahatların aparılması dünya liderlərinin diqqətini çoxdan cəlb edib. İndiki geosiyasi situasiyanın bir sıra özəllikləri isə səfərə ayrıca məzmun verib. Bu səbəbdən ekspertlərin proqnozları yalnız ABŞ-Qazaxıstan münasibətlərinin dinamikası ilə məhdudlaşmır.

Mütəxəssislər həmin aspektdə iki məqamı vurğulayırlar. Əvvəla, ABŞ xarici siyasət kursunun bütövlükdə Mərkəzi Asiya istiqamətindəki aspektində bir canlanma müşahidə edilir. Əslində, bu prosesin əsasını keçmiş dövlət katibi Con Kerrinin 2015-ci ildə regionun beş ölkəsinə etdiyi səfər qoyub. O zaman Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Tacikistan Vaşinqtonla "C5+1" adlanan formatda əməkdaşlıq adı altında "Səmərqənd bəyannaməsi"ni imzalayıblar (bax: bax: Pətğ stran Üentralğnoy Azii i SŞA prinəli deklaraüiö o sotrudniçestve / Tengrinews.kz, 2 noyabr 2015).

N.Nazarbayevin son ABŞ səfərini tam və obyektiv dərk etmək üçün həmin sənəddə nəzərdə tutulan əməkdaşlıq prinsipləri və əhatə dairəsini xatırlamaq gərəkdir. Təəssüf ki, həm ABŞ, həm Rusiya, həm də Qazaxıstan ekspertləri məsələnin bu tərəfinə az diqqət yetirirvə başlıca olaraq indi mövcud olan faktorları önə çəkirlər.

Bir sıra mütəxəssislər "C5+1" formatının səmərəli olmadığı haqqında fikir bildirirlər (bax: məs., Sravnitelğnıy analiz deətelğnosti sozdannıx v Üentralğnoy Azii formatov "5+1" (s uçastiem SŞA, Öjnoy Korei, Əponii i ES) / RSMD, 25 iyul 2017). Ancaq onun bir sıra istiqamətlərdə əməkdaşlıq üçün potensialının olduğunu da vurğulayırlar. Tərəflər suverenlik, iqtisadiyyat, enerji, nəqliyyat, sərmayə qoyuluşu və təhlükəsizlik sahələrində əlaqələrin inkişafında maraqlı olduqlarını ifadə ediblər (bax: Pətğ stran Üentralğnoy Azii i SŞA prinəli deklaraüiö o sotrudniçestve / Tengrinews.kz, 2 noyabr 2015).

Terrorla mübarizə və Əfqanıstandakı vəziyyət burada ayrıca yer tutur. Bunlar əsasında mütəxəssislər belə qənaətə gəlirlər ki, tərəflər əməkdaşlığa hazır olmaqla ümumregion səviyyəsində əlaqələrin mümkün dairəsini müəyyənləşdiriblər.

"Səmərqənd bəyannaməsi"ndən sonra ABŞ tərəfindən hər hansı təşəbbüs olmasa da, sənəddə əməkdaşlığın davam etdirilməsi ayrıca bənd kimi qeyd olunub. Belə gözləmək olardı ki, region ölkələrindən hansısa bu istiqamətdə hərəkət edə bilər. Bunu məhz N.Nazarbayev etdi. Onun apardığı müzakirələrin dairəsinin də "Səmərqənd bəyannaməsi"ndə vurğulanan məqamlara tam uyğun olması bu tezisi gücləndirir.




## Əməkdaşlığın şərtləri: "sıfıra" düşmüş əlaqələr və regional ziddiyyətlər

Deməli, Qazaxıstan prezidentinin səfərini hər hansı fövqəladə geosiyasi addım kimi (müsbət və ya mənfi mənada) qiymətləndirməyə çalışanlar obyektiv mövqe tutmurlar. O cümlədən Nursultan Nazarbayev həmin səfərdə Qazaxıstandan başqa heç bir dövlətin maraqlarını təmsil etməyib (bir sıra ekspertlər Rusiyanın və ümumən Mərkəzi Asiya dövlətlərinin hamısının adını çəkir, erməni KİV-i bu istiqamətdə xüsusilə canfəşanlıq göstərir).

O başqa məsələdir ki, Nursultan Nazarbayevin siyasi nüfuzu Donald Trampla regional əməkdaşlıq və təhlükəsizliyin bir sıra aspektlərini ciddi müzakirə etməyə imkan verib. Ədalət naminə qeyd edək ki, həmin müzakirə baş tutub.

Digər tərəfdən, ABŞ-la Qazaxıstan arasında 20-dən çox saziş imzalanıb! Bu, kiçik göstərici deyil və milyardlarla ABŞ dolları həcmində maliyyənin xərclənməsini nəzərdə tutur. Sahələrə gəldikdə isə, onlar "Səmərqənd bəyannaməsi"ndə göstərilən bütün sferaları - iqtisadiyyat, nəqliyyat, energetika, müdafiə, təhlükəsizlik və s. sahələri əhatə edir (bax: Vizit na semğ milliardov: Nazarbaev podpisal v SŞA rəd soqlaşeniy / RİA Novosti, 17 yanvar 2018).

Bunlarla yanaşı, Nazarbayev-Tramp görüşündə qlobal və regional geosiyasətin aktual problemləri də diqqət mərkəzində olub. Tərəflər Şimali Koreya, Əfqanıstan və Mərkəzi Asiya ilə bağlı fikir mübadiləsi aparıblar. Ekspertlər ona xüsusi diqqət çəkirlər ki, Qazaxıstan dövlət başçısı D.Trampa açıq deyib ki, Şimali Koreya məsələsində Amerika-Rusiya-Çin əməkdaşlığı mühüm əhəmiyyət kəsb edir. Yalnız bu halda problemi aradan qaldırmaq olar. N.Nazarbayev problemin həllinin nədən ibarət olduğunu da deyib: Şimali Koreyanın nüvəsizləşdirilməsi fonunda, ümumiyyətlə, nüvəsizləşdirmə xəttinin yeridilməsi və bu işdə BMT-nin başlıca rol oynaması! Hətta o təklif edib ki, 2050-ci ilə kimi dünyada bütün nüvə silahları ləğv edilsin.

Etiraf edək ki, ədalətli təkliflərdir və Azərbaycanın da müdafiə etdiyi mövqeyə uyğundur. Qazaxıstan rəhbərinin bu təklifi ölkəsinin BMT TŞ-yə sədrlik etdiyi dövrdə verməsi müsbət haldır. Yəni Azərbaycandan sonra başqa bir türk dövləti də oxşar təkliflə çıxış edir. Bu, bütövlükdə Azərbaycan və ümumiyyətlə, türk dövlətlərinə ikili standartlar prinsipi ilə yanaşanlara yaxşı cavabdır - məhz türklər dünyada sülhə ədalətli və real yanaşan xalqlardandırlar. O başqa məsələdir ki, kimlərsə, türk ölkələrinin əleyhinə əsassız fikirlər ifadə edir, böyük dövlətlər isə verilən təkliflərə əməl etmir. Məsələn, N.Nazarbayev ABŞ-dan ayrılandan cəmi bir neçə gün sonra KİV informasiya yaydı ki, Rusiyanın nüvə ehtiyatı 100 meqatonu (!!!) aşır, ABŞ-da isə bu rəqəm maksimum 1,2 meqatondur. Buna görə də Vaşinqton iki yeni nüvə silahı yaratmağı qarşısına məqsəd kimi qoyub. Belə çıxır ki, böyük güclər silahlanma yarışını yeni səviyyəyə qaldırmaq fikrindədirlər.

Qazaxıstan prezidentinin müzakirə etdiyi digər geosiyasi məsələ Əfqanıstandakı vəziyyət, terror və narkoticarətlə mübarizə ilə bağlı olub. Astana terrorun regiona nüfuz etməsindən narahatlığını bildirib. Bunun olmaması üçün ilk növbədə Əfqanıstanda sabitliyə və təhlükəsizliyə nail olmaq gərəkdir. Bu iki istiqamətdə isə hələlik ciddi irəliləyiş yoxdur. Əksinə, faktlar göstərir ki, Əfqanıstanda "Taliban" və "əl-Qaidə" ilə yanaşı İŞİD də möhkəmlənir. Rusiya xüsusi xidmət orqanları isə belə bir vəziyyətdə əsas təhlükənin Mərkəzi Asiya və Rusiyaya olacağını proqnozlaşdırırlar.

Bunlar onu göstərir ki, N.Nazarbayevin D.Trampa ABŞ-Rusiya münasibətlərinin "sıfıra düşməsi"ni xatırlatması arxasında kifayət qədər ciddi əsaslar dayanır. İki böyük güc təhlükəsizlik və terrorla mübarizədə ədalətli, obyektiv prinsiplərlə əməkdaşlığa başlamasalar, dünyanı nələrin gözlədiyini proqnozlaşdırmaq çox çətindir.

Vurğulanan məqamlar onu göstərir ki, Nursultan Nazarbayevin ABŞ səfərində hansısa məxsusi məqamlar axtaranlar yanılırlar. Bir sıra amerikan, Rusiya və Qazaxıstan ekspertinin burada mənfi çalarlar axtarması həqiqəti əks etdirmir. Bu səfər ciddi siyasi hadisədir və Mərkəzi Asiya üçün əhəmiyyəti vardır.

**Newtimes.az**

# Teyyub Qənioğlu: "Müxalifətin xalq tərəfindən heç bir dəstəyi yoxdur"

***- Teyyub bəy, Müsavat partiyası müxalifət partiyalarından birgə toplantıların keçirilməsi, aksiyaların düzənlənməsi xahişi ilə müraciət edib. Sizcə, bu müraciət-xahiş partiyalar tərəfindən nəzərə alınacaqmı?***

- Yəqin ki, Müsavat partiyasının müxalifət partiyalarına müraciət - xahişi nəzərə alınacaq. Çünki prezident seçkilərinin keçirilməsi müxalifət partiyalarını çıxılmaz vəziyyətdə qoymaqla yanaşı, həm də çox pis vəziyyətə salıb, Demək olar ki, müxalifət düşərgəsini təmsil şəxslər seçkilərin bu tezliklə keçiriləcəyini düşünmürdülər. Qərar onları mat vəziyyətinə saldı.

***- Dəfələrlə Ə.Kərimli A.Hacılının birgə aksiyalar keçirmək xahişini rədd edib. Sizcə, hazırkı məqamda Ə.Kərimli A.Hacılının müraciətinə necə cavab verəcək?***



***Müsahibimiz Təkamül partiyasının sədri Teyyub Qənioğludur***

- Müxalifətin ortaq maraqları meydana gəlib. Bu baxımdan, maraqlarını nəzərə alıb eyni mövqedən çıxış etmələri istisna deyil. Ümumiyyətlə, müxalifət düşərgəsini təmsil edən şəxslərin maraqları üst-üstə düşəndə, onlar arasında olan narazılıqlar ikinci plana keçir.

***- C.Həsənli bu həftə Avropaya səfərə hazırlaşır. Sizcə, sekiərəfəsi səfər müəmmalı səfər olacağını demək olarmı?***

- Bu gün heç kəsə sirr deyil ki, xaricdə olan bəzi qüvvələr müxalifət partiyalarını dəstəkləyirlər. C.Həsənlinin isə Avropaya səfərə getməyə hazırlaşması, yəqin ki, mövqelərini izah etməyə və ola bilsin ki, əlavə təlimatlar alsınlar.

***- Müxalifətin boykot taktikası nə dərəcədə effekt verə biləcək?***

- Bu gün müxalifət düşərgəsini təmsil edən partiyalar çıxılmaz durumdadır. Bu vəziyyətində müxalifətin seçkilərdə iştirak etməsi imkan xaricindədir. Yəqin müxalifət hesab edir ki, boykot taktikasının seçməklə gözlənilən uğursuzluqları sığortalaya biləcəklər. Çünki müxalifətin xalq tərəfindən heç bir dəstəyi yoxdur. Belə olan halda, müxalifətin seçkilərdə qalib gəlmək şansları sıfıra bərabərdir.

***GÜLYANƏ***

# Avropalı milli satqınlar debatdan belə qaçdılar

## *Keçmiş deputat Vətən xainlərinin "başlarını" təkbaşına "bağladı" və Avropaya təşəkkür etdi*

***Milli Məclisin keçmiş deputatı, jurnalist Etibar Hüseynovun Avropada "siyasi mühacir", yaxud "dissident" adı altında yaşayaraq, anti-Azərbaycan dairələrdən təlimat alan tərəfləri - Orduxan Teymurxanı, Məhəmməd Mirzəlini, Tural Sadiqlini "facebook" sosial şəbəkəsi vasitəsi ilə debata çağırması və qarşı tərəflərin müxtəlif bəhanələrlə debata gec qatılmaları və ya debatı tez-tələsik tərk etmələri, bir daha sübut etdi ki, onların dövlətçilik əleyhinə fəaliyyətləri növbəti dəfə ifşa olmağa məhkumdu. Sabiq deputatın üç nəfərlə birdən siyasi polemikaya qatılmasından sonra onun tərəfindən ortaya çıxarılan arqumentlər və faktlar milli satqınların meydandan qaçmaları ilə müşayiət olundu.***

### Etibar Hüseynov: "Üç də olsalar, birinə dəymədilər, məncə. Gələn dəfə deyəcəm, beş nəfərlə gəlsinlər"

Yeri gəlmişkən, Etibar Hüseynov bununla bağlı maraqdoğurucu status paylaşaraq, qeyd edib ki, onlar növbəti dəfə də debata qatılacaqlarını, desələr də, bəziləri sonradan onu blok edərək, həmin vədlərinə də xilaf çıxıblar. Misal üçün, keçmiş millət vəkili yazır: "Biri bəhanə eləyib tez getdi, o birisi, bəhanə gətirib gec gəldi...Amma üç də olsalar, birinə dəymədilər, məncə. Gələn dəfə deyəcəm, 5 nəfərlə gəlsinlər. Hər halda, söz verdilər ki, yaxın vaxtlarda yenə də söhbətləşəcəklər. Hansı ki, bu cəsarətdə bulunacaqlarına heç inanmıram..."

Göründüyü kimi, artıq neçə gündərdir ki, sosial şəbəkələrdə müxtəlif adlarda profillər açaraq, milli və dövlət maraqlarımız əleyhinə insanlıq ləyaqətinə sığmayan ifadələr, karikaturalar və s. məzmunlar paylaşan Vətən xainləri, hətta "şərəfsiz" ifadəsini belə, özlərinə təhqir hesab etmədiklərini etiraf ediblər.



### Məhəmməd Mirzəli "şərəfsiz" sözünü özünə təhqir hesab etmir...

Digər tərəfdən, Azərbaycanın hərtərəfli inkişafı, mətbuat və ifadə, həmçinin, sərbəst toplaşma azadlığı, demokratik dəyərlərin qorunması və bu kimi digər amillərin ölkəmizdə mövcudluğunun ardınca, E.Hüseynovu blok edənlər sonradan jurnalistin onlar barədə özünəməxsus ironik status yazması ilə müşahidə edilib. Keçmiş deputat daha sonra qeyd edib: "Məhəmməd Mirzəli məni blok elədi. "Şərəfsiz" sözünü özünə təhqir hesab etmədiyini söyləyən, bütün gününü onu-bunu təhqir etməklə keçirən bu yoldaş, debatdan yarımçıq getməsinə irad tutduğum üçün məndən küsdü".

### Orduxan Teymurxan otuz ildir Avropada yaşamasına rəğmən, tərbiyəsi, mədəniyyəti sıfır həddindədir - bu "adam" qışqırmaq üçün yaranıb

"Yəqin ki, Orduxan da "küsüb" gedəcək"-deyə statusuna davam edən jurnalist ifadəsini belə anladır ki, qarşı tərəflər Vətəndən kənarda özlərini "mübariz adam" kimi hiss etsələr də, bu kimi davranışlarını Azərbaycanda sərgiləməyə cürətləri çatmır: "Zatən bu adamlar arxada şir pələngdirlər; üz-üzə oturub sağlam polemika aparası halları yox. Bu gün şahidi oldum ki, (Tural Sadiqli istisna-E.H.) bu adamların birinin danışıq qabiliyyəti və digərininsə dinləmək mədəniyyəti yoxdur. Orduxan 30 !! İldir ki, Avropada yaşayır. Hələ buna rəğmən, adamda elementar mədəniyyət, tərbiyə deyilən şey yoxdur. Adam sanki söyüş, təhqir və ən yumşaq halda desək, qışqırmaq üçün yaranıb. Təsəvvür edəndə ki, bu hələ 30 ildir Avropada yaşayıb bu gündədir, getməyib qalsaydı, hansı gündə olardı - adam dəhşətə gəlir. Bütün günü deyir ki, YAP-ın trolları gizli imza ilə təhqir yazır, çağırmışdım da üzbəüz dialoqa, niyə qorxundan gəlib çıxmadın? Vallah, belələri elə yaxşı edib, vaxtında gediblər. Təşəkkürlər sənə Avropa..."

Beləliklə, növbəti fakt ortadadır və bu faktı danmaq, ümumiyyətlə, mümkün deyil. Əgər sabah-birigün digər siyasi bilgisi olan kəslər bu kimi xəyanətkarlar yığnağını debata çağırarlarsa, onlar yenidən bənzər addımları ilə, bəhanələri ilə həmin debatlardan, sözün əsl mənasında, dabanlarına tüpürüb qaçacaqlar. Necə deyərlər, kor-kor, gör-gördür...

***Rövşən RƏSULOV***



**Təhmasib Novruzov**

# Müxalifətin özünüboykot "taktika"sı

***Bu müxalifət var ha...Vallah, billah dünyada onun analoqu yoxdu. Deyin, niyə? Bu yazıqlar on milyon əhali arasında özünə rəğbət qazandırıb, tərəfdarlar cəlb etmək əvəzinə (ki, bütün dünyada müxaliflər bu yolla gedir), üz tutublar conlara, ivanlara, müsyolara ki, bizə dəstək verin, gələk hakimiyyətə və sizin istəklərinizi həyata keçirək. Bu əmilər də onların qaragüruhçu hay-küylərinə inanıb, milyonları axıdırlar onların ciblərinə.***

Əvvəllər mən də, hamı kimi elə bilirdim ki, dünyaya hegemonluq eləmək istəyən bu əmilərdə ağıl var. Sən demə, onlar çox ağılsız kimsələrmiş. Nə isə, mövzumuz bu deyil. Müxalifətimizdən danışırdıq axı!.. Düz 25 ildir ki, hər dəfə seçkilər başlayanda, müxalifətimiz də başlayır özünəbənzər taktikalara. Gah birləşirlər, gah ayrılırlar, gah bir-birini tərifləyirlər, gah da başlayırlar bir-birini təhqirə. Sonda da əlləri hər şeydən üzüləndə, əmilərin verdiyi pulları "yumaq" üçün, fikirləşib bir yol tapırlar. Çox zaman da bu yol olur "boykot" yolu. Amma bu yazıqlar, deyəsən, boykotun nə olduğunu da anlamırlar. Yəni boykot beynəlxalq aləmdə istifadə olunan siyasi metodlardan biridir və bu metodun özünəməxsus mexanizmi var. Bu da ibarətdi ondan ki, seçkini boykot etmək istəyən siyasi gücün gərək kifayət qədər elektoratı, yeni tərəfdarları olsun. Ölkəmizin seçki qanunlarına əsasən, ölkədəki siçicilərin ümumi sayı nəzərə alınmaqla, boykot taktikası seçən siyasi təşkilatın gərək azı iki milyon yarımdan çox tərəfdaşı olsun. Bizim ölkədəki bütün müxalif qurumlar dəfələrlə "birləşərək" keçirdikləri mitinqlərdə, ən çoxu 2-3 min nəfər toplaşıb ki, onların əksəriyyəti vəzifədən qovulmuş keçmiş məmurların yaxınlarıdır. Belədirsə, demək, bu müxaliflərin tərəfdaşlarının, ümumilikdə, sayı heç ölkədəki seçicilərin bir faizinə də bərabər deyil. O zaman sən hansı qüvvəylə "BOYKOT" deyib, bağırırsan? Necə deyərlər, hanı zığzığın! Budu zığzığın! Yox, əgər bu binəvalar, sadəcə, özlərinin və tək-tük tərəfdarlarının seçkidə iştrak etməməsinə çalışırlarsa, bunun da öz adı var: iştrakdan imtina! Yəni bir el misalında deyildiyi ki, düşünürsünüzsə ki, Bayramalısız aş olmaz, siz olun Bayramalı, bizlər o aşı yeyək, həzm-rabemizdən keçirək, siz qıraqda dayanıb, ağzınızı marçıldadın. Gördünüz, aş qurtardı, dibi də sivrildi, yığışın adını "Milli Şura" qoyduğunuz qurumun ofisinə, bu gözdən pərdə asan taktikanıza görə xariçdən gələn növbənöv yeməkləri qoyun ortalığa və başlayın qaşıqlamağa. Sizə söz veririk, heç birinizin payına şərik çıxmayacağıq, çıxmaq istəyənə də, mane olacağıq. Çünki sizə verilən aş haramdır, bizlər isə haram tikə yeməyə adət eləməmişik. Haram aş olsa da, sizlərə fərq etməz, yeyin və arada con əmilərinizin sağlığına da yüz vurun. Bax, bunu mütləq unutmayın ha!.. Yoxsa gələn seçkidə sizə daha aş-flan göndərməzlər. Xülasə, o qədər aşdan danışdım ki, iştaham baş qaldırdı. Amma iştahamı öldürməzdən əvvəl, bu yazıya bir son vermək lazımdı axı. Son da ibarətdi ondan ki, bu müxalifətimiz "boykot" deyə-deyə, özünü tamam boykot elədi. Onsuz da, cəmiyyədə çoxdan boykot olanların bu boykot bağırtısı yenə onların özlərinin boykotuna səbəb oldu. Vallah, adamın hərdən bunlara yazığı gəlmək istəyir. Axı adam 25 ildə nə qədər BOYKOT olar?..

TƏRS BAXIŞ

# Tofiq Yaqublunun istefa müəmması

*Müsavat partiyası yenidən çalxalanır*

***Son zamanlar Müsavat partiyasında baş verən istefalar, ilk növbədə, bir faktoru təsdiq edir - partiya rəhbərliyi, sıravi üzvləri qalsın bir yana, elə öz aralarında da ciddi ziddiyyətlər yaşanmaqdadır. Daha dəqiq desək, Müsavat başqanı Arif Hacılı öz işinin öhdəsindən gəlməyi bacarmadığını baş verən ardıcıl istefalarla sübuta yetirmiş olur. Bu baxımdan, hələ İsa Qəmbər dönəmindən başqan müavini olmuş Tofiq Yaqublunun həmin vəzifədən uzaqlaşdırılması deyilənləri kifayət qədər təsdiq edir. Düzdür, T.Yaqublu baş verənlərlə bağlı mətbuata açıqlama versə də ki, o, yalnız vəzifəsindən azad edilib və partiyanın məclis, eləcə də, divan üzvlüyündə qalmaqdadır, lakin fakt budur ki, onunla başqan arasında kəskin qarşıdurma yaşanmaqdadır.***



## Tofiq Yaqublu Arif Hacılı ilə kəskin münasibətdə olduğunu gizlətməyə cəhd etsə də...

Misal üçün, "Bunu Arif Hacılı ilə danışmışıq və səbəblər izah olunub. Müavinlik vəzifəmdən kənarlaşdırılsam da, partiyada qalıram", - deyə qeyd edən T.Yaqublu, eyni zamanda, istefasının "Milli Şura"nın üzvü olması ilə əlaqələndirilməsini də təsdiqləyib. Bu barədə açıqlama vermək istəmədiyini bildirib. Yaqublunun, məhz bu məsələ ətrafında açıqlama vermək istəməməsi onun Hacılı ilə arasında olan kəskin nifaqın, davamlı qarşıdurmaların, o cümlədən, qrup maraqlarının ictimailəşdirilməməsinə hesablanmış addım olaraq qiymətləndirmək mümkündür.

## Elman Fəttah da istefasına partiyanın idarəçiliyində yaranan fikir ayrılıqlarının səbəb olduğunu etiraf etmişdi

Uzun illər Müsavat partiyasında təmsil olunan şəxslər - Qubad İbadoğlu, Səxavət Əlisoy, Hüseyn Məlik, Vurğun Əyyub, Elşən Həsənov, Azər Telmanoğlu, Tural Abbaslı, Hikmət Hacızadə, Əlövsət Talışxanlı, Əhliman Abbaslı və digərlərinin partiya sıralarını tərk etmələri, bilavasitə hazırkı başqanı qəbul etməmələri ilə əlaqələndirilib. Onu da qeyd edək ki, digər başqan müavini Elman Fəttahın da, bir müddət əvvəlki istefasına səbəb A.Hacılı faktoru olub. Çünki E.Fəttah da mətbuata açıqlamasında bu barədə yayılan xəbərləri təsdiqləyərək, bildirmişdi ki, istefasına partiyanın idarəçiliyində yaranan fikir ayrılıqları səbəb olub.

Beləliklə, baş verən istefaların kontekstində dayanan müəmma, əslində, aşkar reallıqdır. Bu reallıq A.Hacılı başqanlığının zaman-zaman rədd edilməsi və Müsavat partiyasının növbəti dəfə parçalanması amilidir. Partiyanın qrup maraqları uğrunda bir-birilərinə düşmən kəsilən təmsilçiləri son anda öz etirazlarını istefalar şəklində bildirməkdə davam edirlər. Bu isə, Müsavatın yenidən çalxalanmasını isbatlayan danılmaz həqiqətdir. Yeri gəlmişkən, Müsavat məclisinin sabiq başqan, "MSDM"-in sədri İsa Qəmbərin prezident seçkisində iştirakına qadağa qoyması da, ümumiyyətlə, partiyanın seçkilərdən kənarda qalması barədə verilən qərar da bir çox müsavatçının kəskin etirazlarına səbəb olub. Hazırda tanınmışlarla yanaşı, sıravi müsavatçılar da var ki, onlar təşkilat sıralarından çıxmaları üçün istefa ərizələri ilə müraciət etməkdədirlər.

***Rövşən NURƏDDİNOĞLU***

# Mühacirlərin nə seçki hüququ var, nə də ictimai dəstəyi



***Hər dəfə olduğu kimi, bu dəfə də prezident seçkilərinə qatılmaq arzusunu reallaşdırmaq istəyi avantüristlərin iç üzünü və simasını daha qabarıq şəkildə ortaya qoydu. Xəstə təxəyyül sahiblərinin reallığa sığmayan niyyətləri yenə də özünü büruzə verməkdədir. Hətta anormal düşüncə tərzinə, utopik baxışlarına və əsassız iddialarına görə seçilənlərin müştəbehlikləri hədsiz dərəcədə gülünc görünür. Bələlərinin əqli cəhətdən sağlam ola bilməsi belə şübhə doğurur.***

## Düşüncəsizlik yarışmasının mühacir iştirakçıları

Əqli problemi, anormal düşüncə tərzi ilə seçilən müxalifətçi az imiş kimi, xaricdən də bəziləri yersiz, əsassız iddiaları, yalançı çıxışları, gülünc mövqeyi ilə qüsurluların bu siyahısında öz yerini və statusunu möhkəmləndirməyə çalışır. Qanun qarşısında öz əməllərinə görə cavab verməkdən boyun qaçırmaq məqsədilə ölkəsini və vətənini qoyub qaçanlar, indi dırnaqarası qəhrəmana çevrilib, vətənə gələ bilməyəcəkləri halda özlərini, hətta prezident kürsüsündə belə görmələri kəm ağıldan xəbər verir və gülüş doğurur. Məhz belə ağılsızlıq və düşüncəsizlik yarışmasının iştirakçıları olan bəzi mühacirlər bu xüsusda özlərinin digərlərindən daha üstün mövqedə olduğunu sübut etməyə çalışır. Hüseyn Abdullayev kimiləri Rəsul Quliyev kimilərinə "sən haranın itisən" deməklə, bu yarışmada özünü daha layiqli hesab edir. Yəni bu düşüncəsizlərin siyahısında bir növ Rəsulun Hüseyndən geri qaldığına işarə edir. R.Quliyevi qorxudan ölkədən qaçmaqda ittiham edən sabiq deputat onu boşboğazlıq edən şəxs, tarixin zibilliyinə atılmış siyasi bir boşluq adlandırır. Yəqindir ki, özünü daha üstün hesab edir, amma Quliyev heç də bu fikirdə deyil və virtual da olsa, tərəf-müqabilini cavabsız qoymur. Onu tərbiyəsizlikdə ittiham edir və özündən razı müştəbeh olaraq xarakterizə edir.

## Eyni statusda olan mühacirlərin birinin digərinə olan iradı gülüncdür

Hər iki mühacirin bir-birinə ünvanladığı ittihamlar doğrudur, daha doğrusu, bu ittihamlarda həqiqətdən kənar heç nə yoxdur. Amma görək bu ittihamları etməyə onların hər birinin nə dərəcədə haqqı çatır? Hər bir normal düşüncə və sağlam əqidə sahibi bu ittihamlarla çıxış etməkdə haqlıdır. Fəqət, hər iki mühacir eyni statusda olduğu halda, birinin digərinə olan iradı belə gülüncdür. Bəllidir ki, hər iki mühacir barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi açılıb və barələrində həbs qərarı verilib. Hər biri, öz növbəsində, qanun qarşısında cavab verməlidir və bu cavabdehlikdən qorxub yayınaraq, ölkəni tərk etdikləri və mühacir həyatı seçdikləri reallıqdır. Hər iki mühacirin də cinayətkar və qorxaq olduğu həqiqətdir. Lakin qanun və ədalət qarşısında cavab verməli olduqlarından qorxub, Azərbaycandan qaçdıqları halda, biri digərini hansı üzlə ittiham edir? Eyni ittihamlarla təqsirli bilinənlər bir-birini hansı haqla günahlandırır?

Abdullayev kimi hamı da bilir ki, Quliyevin topladığı vəsait ona ata-babasından miras qalmayıb və hələ də xarici ölkədə xalqdan və dövlətdən oğurladıqları pullar hesabına yaşayır. Bu ölkənin, bu torpağın yeraltı sərvətlərindən gələn gəlirləri mənimsəyən, rüşvətxorluq və korrupsiya yolu ilə əldə etdiyi vəsaitlər hesabına büdcəsini dolduran keçmiş zavod direktoru, sonra da spiker vəzifəsini tutmuş, Quliyev indi də bu pullar hesabına hakimiyyət iddiasına düşüb. Bu, sadəcə, iddiadan başqa bir şey deyil və bu iddia, olsa-olsa, həyasızlığın son həddi ola bilər. Çünki onun bu istəyinə və arzusuna qanun icazə versə belə, sərvətlərini taladığı xalq qəti yol verməz.

Almaniyada mühacir həyatı yaşayan keçmiş deputatın da iqtisadi məzmunlu cinayət işləri var və nəzərə alsaq ki, barəsində külli miqdarda vergidən yayınma maddəsi ilə cinayət işi qaldırılıb, deməli, Abdullayevin də seçki barədə arzuları elə arzu olaraq ürəyində qalacaq. Əvvəla, cinayət xarakterli əməllərinə, ölkə hüdudlarından kənarda 5 ildən çox müddətdə yaşadığına görə, buna qanun icazə verməyəcək. Lap elə qanun icazə versə belə, bu ünsürlərin seçkilərə qatılmasına onlar tərəfindən talanmış xalq razı ola bilməz. Mühacirlərin, əslində, nə bir seçki hüququ var, nə də ictimai dəstəyi. Əksinə, hər ikisi xalqın gözündə bir heçdir və Azərbaycan ictimaiyyəti onlara, nəinki səs verməz, hətta səsverməyə qatılmasına belə razı olmaz. Bu halda, müştəbehlikləri və pafoslu çıxışları çox gülünc səslənir və ikrah doğurur. Bu cür davranışları isə kəm ağılın təzahürüdür.

***İnam Hacıyev***

# Ermənistan çaylarımızı çirkləndirməkdə davam edir



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamenti Kür və Araz transsərhəd çaylarının, həmçinin onların transsərhəd qollarının çirklənmə vəziyyətini öyrənmək məqsədilə yanvar ayında növbəti monitorinq həyata keçirib. Nazirliyin mətbuat xidmətindən SİA-ya verilən xəbərə görə, fevral ayının I ongünlüyündə Kür çayında suyun sərfi yanvar ayının III ongünlüyünə nisbətən 7 m3/san azalaraq 166 m3/san təşkil edib.

Monitorinqin nəticələrinə əsasən Gürcüstan və Ermənistan ərazilərindən təmizlənmədən birbaşa su obyektlərinə axıdılan məişət tullantıları və sənaye müəssisələrinin çirkab sularının təsiri nəticəsində Kür çayı və onun qollarında biogen maddələrin miqdarının normadan dəfələrlə artıq olması müşahidə olunub. Suyun tərkibindəki spesifik çirkləndiricilərdən fenollar Şıxlı-2 məntəqəsində və Ağstafaçayda 3, Ağstafaçay su anbarında isə 2 dəfə yol verilən qatılıq həddini (YVQH) keçib. Fevral ayının I ongünlüyündə aparılan monitorinqlərin nəticələrinə görə fenollar Araz çayı üzrə Horadizdə 3, Bəhramtəpədə və I Şahsevəndə 2 dəfə YVQH-ni keçib. Mis birləşmələri isə Kür və Araz çayları üzrə bütün məntəqələrdə norma daxilində tərəddüd edib. Suyun oksigen rejimi bütün məntəqələrdə 7.31-8 mq/l arasında olmaqla sanitar norma daxilində dəyişib.

# Türkiyə Münhen Təhlükəsizlik konfransında iştirak edəcək

Türkiyə Təhlükəsizlik üzrə 54-cü Münhen konfransında iştirak edəcək. Bu barədə Türkiyə Xarici İşlər Nazirliyindən bildirilib. Qeyd edək ki, 54-cü Münhen konfransı fevralın 16-18-də keçiriləcək. Türkiyəni konfransda xarici işlər naziri Mövlud Çavuşoğlu təmsil edəcək. Türkiyə XİN-dən bildiriblər ki, Türkiyə konfransın işinə böyük diqqət ayırıb, beləki forumun gündəliyinə terrorizmlə mübarizə ilə bağlı məsələ, Yaxın Şərq problemi, eləcə də Türkiyə-NATO münasibətləri daxildir.

# Ceyms Mattis: ABŞ terror təhdidləri ilə mübarizədə Türkiyənin yanındadır



ABŞ-ın müdafiə naziri Ceyms Mattis ABŞ-ın PKK və digər terror təhdidləri ilə mübarizədə Türkiyənin yanında olmağa davam edəcəyini deyib. AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, Pentaqondan yayılan açıqlamada Mattis ilə Türkiyənin milli müdafiə naziri Nureddin Canıklının iki ölkə arasında uzun müddətdən bəri davam edən müdafiə əlaqələrinə yenidən baxılması üçün Brüsseldə NATO müdafiə nazirlərinin toplantısı çərçivəsində görüşdükləri bildirilib. Qeyd olunub ki, görüşdə Pentaqonun başçısı Türkiyənin İŞİD terror qruplaşması ilə mübarizəyə və beynəlxalq təhlükəsizliyə verdiyi töhfələrə görə Canıklıya təşəkkür edib. Məlumatda, həmçinin Mattis və Canıklının müdafiə sahəsində ikitərəfli fəaliyyəti və iş birliyini daha da gücləndirmək, bununla bağlı müzakirələri davam etdirmək barədə razılığa gəldikləri deyilir.

# Liberal-demokratik sistemlərdə insan hüquqları

***Liberal-demokratik sistemlərdə birinci nəsil hüquqların məhkəmə təminatı var. Yəni bunlar pozulduqda, məhkəməyə müraciət edərək, bunların bərpasını istəmək mümkündür. Birinci nəsil hüquqlar ayrılmazdır, şəxs istəsə belə, bunlardan imtina etməsi mümkün deyildir. ABŞ Dövlət Departamentinin hər il yayımladığı məruzələrdə konkret ölkələrdəki insan hüquqlarının durumu haqqında məlumat verilir.***

Orada müxtəlif hüquqlar baxımından qiymətləndirmə aparılır. Mahiyyətcə birinci nəsil hüquqlardan olan bu hüquq haqqında liberal demokratiyalarda, ümumiyyətlə, bəhs olunmur. Avropa demokratiyaları üçün, bu, keçmiş bir mərhələdir. İkinci nəsil hüquqlar "İkinci" sözü ilə, bunların birnci nəsil hüquqlarından daha sonra gəldiyi, xronoloji olaraq da daha sonra irəli sürüldüyü və tələb olunduğu mənasına gəlir. Həqiqətən də, liberal fəlsəfə, ilk növbədə, birinci nəsil hüquqlar üzərində dayanırdı. İkinci nəsil hüquqlar üzərində ilk dəfə sosialistlər hərəkətə keçiblər. 20-ci əsrin ikinci yarısında isə, Qərb fəlsəfəsi də bunların əhəmiyyəti üzərində durmuşdur. Bunlara iqtisadi, sosial və mədəni hüquqlar deyildiyi kimi, pozitiv hüquqlar da deyilir.Dr.Fərhad Mehdiyev yazır:" İkinci nəsil hüquqları belə səciyyələndirmək olar:

X pozitivdir, yəni bunların reallaşması üçün dövlət bir iş görməlidir;

X resurs tələb edirlər, yəni bunların reallaşması üçün dövlətdən konket məsrəf tələb olunur;

X zaman tələb edirlər, çünki bunların reallaşmasında həm maliyyə vəsaitləri, həm də bir fəaliyyətin icrası tələb olunur;

X qeyri-müəyyəndir, yəni bunların təmin edilib-edilmədiyini qiymətləndirmək çətindir.

Qeyd olunmalıdır ki, ABŞ-nın "insan hüquqları reyestri" çox da təmiz deyildir. Quantanamo hərbi bazası və orada törədilən haqsız işgəncələr, ABŞ-ın bu məsələdəki imicinə neqativ təsir vurmuşdu. Bununla bərabər, ABŞ Dövlət Departamentinin ölkələrdəki insan hüquqları ilə bağlı müvafiq raportları, öyrənməyə və ölçü götürməyə dəyər qiymətləndirmələrdir.

İnsan hüquqları:

X ideolojidir, yəni bu kateqoriyada hansı hüquqların yer alacağına dair consensus yoxdur;

X mahiyyətcə sosialist hüquqlardır;

X hüquqi (məhkəmə) təminatları zəifdir, yəni onların pozulması halında, bərpa olunmaları üçün hüquqi mexanizmlər əksikdir.

Birinci nəsil hüquqlar azadlıqla bağlı olduqları kimi, ikinci nəsil hüquqlar bərabərlik hüququ ilə bağlıdırlar. Lakin bərabərlik hüququ, siyasi həyat baxımından birinci nəsil hüquqlara daxil olduğu halda, "iqtisadi bərabərlik" insanın əmlakı və iqtisadi statusu baxımından, ikinci nəsil hüquqlara aid olur. İkinci nəsil hüquqlar, cəmiyyətin müxtəlif üzvlərinə eyni şərtləri və eyni rəftarı təmin etməyə yönəlir. Bunlar, əsasən II Dünya müharibsindən sonra dövlətlər tərəfindən tanınmağa başlanıb. Bu hüquqlar arasında bunları göstərmək olar:

X mənzil hüququ (mənzil toxunulmazlığı ilə qarışdırmamaq lazımdır);

X əmək hüququ;

X sağlamlıq hüququ (dövlət tərəfindən güzəştli şərtlərlə müalicə hüququ);

X sosial sığorta hüququ (pensiya yaşına çatıb təqaüd alma imkanı) ;

X işsizlik sığortası;

X təhsil hüququ.

Üçüncü nəsil hüquqlar, qeyri-rəsmi təsnifat olaraq qalır. Bunlara "həmrəylik" hüquqları da deyilir. Mübahisəli olan bu hüquqlar kateqoriyasına aşağıdakılar daxil edilir:

X qrup və kollektiv hüquqlar, məsələn, qrup şəklində müraciət etmək hüququ;

X öz müqəddəratını təyin etmə hüququ;

X iqtisadi və sosial inkişaf hüququ;

X sağlam ətraf mühitdə yaşamaq hüququ;

X ölkənin təbii sərvətlərinə hüquq;

X başqaları ilə əlaqə qurma hüququ;

X mədəni vərəsəçilikdə iştirak etmə hüququ. Yuxarıda sadalanan hüquqlara baxdıqda, bu xüsuslar nəzərə çarpır: bunlardan bəziləri müstəmləkə xalqların inkişafı mərhələsində irəli sürülən hüquqlardır. Digərləri isə, liberal cəmiyyətlərin inkişafı ilə ortaya atılıb, məsələn, sağlam ətraf mühitdə yaşamaq hüququ. Bu hüquqların bir hissəsi, milli qanunvericiliklə tanınır. Belə olan halda, bunların ölkə daxilində məhkəmə təminatı ola bilər. Lakin beynəlxalq sistemdə, ikinci nəsil hüquqların təminatı olmadığı nəzərə alınsa, rahatlıqla anlayarıq ki, həmrəylik hüquqlarının beynəlxalq təminat mexanizmi yoxdur. Bu, o mənaya gəlir ki, həmrəylik hüquqlarından birisinin pozuntusu ilə qarşılaşsanız, onu ancaq milli qanunvericilik buna imkan tanıdığı hallarda, milli müstəvidə qoruya bilərsiniz. Sağlam ətraf mühitdə yaşama hüququna isə ayrıca qiymət verilməlidir. Belə ki, milli qanunvericiliklərdə getdikcə tanınan bu hüquq, təsirli və dolğun normativ, həm də ideoloji-siyasi təməllərə sahib olmağa başlayır.

İnsan hüquqları, şəxsin sırf insan deyilən ləyaqətli, şüurlu və sərbəst iradəli varlıq olduğuna görə, hər yerdə və hər kəsə qarşı yönəldilə bilən, şəxsin "qorunan qalası" olan və onu digər şəxslərə, cəmiyyətə və dövlətə qarşı qoruyan, bununla belə, həm dövlətə öhdəlik qoyan, həm də hüquq sahibinə də bəzi öhdəliklər yükləyən hüquqlardır. 1789-cu ildə qəbul edilmiş Fransa İnsan və Vətəndaş Hüquqlar Bəyannaməsində göstərilir ki, azadlıq, mülkiyyət, təhlükəsizlik və repressiyalara qarşı müqavimət hüququ insanın təbii hüquqlarındandır və universaldır. Bu hüquq vətəndaşlığa baxılmadan bütün insanlara aiddir. Müddətə bağlı olmayan, ayrılmaz, müqəddəs, təbii hüquqlardır, aradan uzun müddət keçməsinə baxmayaraq, çox aktual hüquqlardır. Bəyannamənin 2-ci maddəsində deyilir: "Hər bir siyasi cəmiyyətin məqsədi insanın təbii və müddətin keçməsi ilə bağlı itirilməyən hüquqlarını qorumaqdır".

Avropa İttifaqı Əsas Azadlıqlar Şərtinin 24-cü maddəsində yazılıb ki, hər bir uşaq öz fikirlərini sərbəstcə ifadə edə bilər. Azadlıq hüququ, insanın sahib olduğu ən vacib hüququdur. O olmadan, yaşamaq hüququnun da mənası yoxdur. Bir çox hüquq, məhz bu hüquqdan törəmədir. İfadə azadlığı, fikir və inanc azadlığının bir növü olan sevgi hissi və azadlıq hüququna sıx bağlıdır. 1789-cu il Bəyannaməsinə görə, azadlıq hər cür təzyiqdən uzaq olaraq, başqasına zərər verməyən hər şeyi etmək imkanını ifadə edir. Buraya Monteskyönün sözlərini əlavə etmək istəyirik: azadlıq heç kəs tərəfindən idarə olunmamaq mənasına gəlmir, azadlıq səninlə bərabər hüquqlara sahib insan tərəfindən idarə olunmaq mənasına gəlir. Mehdi Niyazi " Haqları necə qorumalı" əsərində yazır:" II Dünya müharibəsində faşistlərin yəhudilərə qarşı törədilən təmizləmə fəaliyyətinin bir soyqırımı olduğunu tanımamaq, bəzi AŞ ölkələrinin qanunvericiliyinə görə cinayət məsuliyyətinə səbəb olur. Söz azadlığının bir ifadəsi olan bu cür davranışların cinayət hesab olunması, ağlasığmazdır". Dr. Fərhad Mehdiyevin fikrincə, insan hüquqlarından fərqli olaraq, qanuni hüquqların yaranması və formalaşması həmişə özü-özünə olmur və bəzi şərtlərə bağlıdır. Məsələn, kreditor hüququ müqavilə bağlandıqdan sonra yaranır. Halbuki azadlıq hüququna bir insan doğuşdan bəri sahibdir. Buna görə də, insan hüquqları universal sayılır, insan hüquqları bir müqavilə ya da inzibati aktla yaranmır. Deklarasiyanın bütün insanların azad doğulduğu, ləyaqət və hüquqlarda da bərabər olduqları bəyan edilir. Deklarasiyanın belə deməsi təsadüfi deyildir. Həqiqətən də, insanın doğulması ilə azad olması və hüquqları əldə etməsi, eyni zamanda, bərabərlik hüququnun da dərhal yarandığını, bunların məcburi və təbii bir hüquq olduğunu isbat edir. İnsan hüquqlarının digər xüsusiyyəti, yenə ilk xüsusiyyətinə bağlı olaraq, bunların ayrılmaz, imtina oluna bilməz və başqasına keçməyən hüquq olmasıdır. Belə olmasının səbəbi insanın insan olmasından irəli gəlir. Amma bu tezis, sadəcə, simvolik və qulağa xoş gələn tezis deyildir. Bunun praktiki nəticələri tətbiq sahəsində özünü büruzə verir (verməlidir). Məsələn, yaşamaq hüququ ayrılmaz olduğuna görə, insanın özünə qəsd edib, intihar etmə səlahiyyəti yoxdur, buna cəhd edənin qarşısının alındığını görürük. İnsan hüquqlarına belə bir xüsusiyyət tanınmasa, bu, ona gətirib çıxarar ki, hakimiyyət orqanları hədə- qorxu ilə insanları bu hüquqlardan imtina etməyə məcbur edər. Burada bir məqamı təkrar etməliyik: müasir insan hüquqları nəzəriyyəsi, liberal siyasi nəzəriyyəyə əsaslanır. Liberalizm də, bir neçə kontekstdə dövlətə (hakimiyyət orqanlarına) etibar eləmir və onları insan hüquqlarının əsas rəqibi kimi görür. Bu, təsadüfi deyil. Qərb mənşəli düşüncə tərzi belədir - təminat olmadan heç kəsə güvənmə, sırf vədlərə, hüsnüzənn və ümidlərə etibar etmə. Qonşuluqda, iş həyatında, kommersiyada, dövlətlə münasibətdə bu qaydaya riayət olunur, münasibətlər yazılı şəkildə və hüquqi normalarla tənzimlənir. Bu, eyni zamanda, Qərbin siyasi və hüquqi mədəniyyətinin bir təzahürüdür. Çünki bunu onlara keçmişlərin acı təcrübəsi öyrədib. Yuxarıdakı məqamı qeyd etdikdən sonra, mülki hüququn bir institutu kimi bilinən "şəxsiyyət hüquqlarına" toxunmaqda fayda var. Şəxsiyyət hüquqları ilə insan hüquqlarını da qarışdırmamaq lazımdır. Hər ikisinin ortaq cəhəti budur ki, bunlar əmlak hüquqlarından sayılmır və pulla ölçülmür. Şəxsiyyət hüquqları - əmlak hüquqları ayırımı mülki hüquqda tətbiq edilir. İnsan hüquqları isə ümumi (public) hüququn tədqiq etdiyi bir institutdur. İnsan hüquqlarının üçüncü xüsusiyyəti, bunların yaranması və mənbəyi baxımındandır: bunlar insan ləyaqəti ilə sıx bağlıdırlar, bu səbəblə insan ləyaqətinə zidd olan hər cür davranış və fəaliyyət, bu əsas və təbii prinsipə zidd olacağına görə batildir. Bu hal xüsusi hüquqa təsir göstərdiyi kimi, ümumi hüquqda da özünü büruzə verir. Məsələn, qumar borcundan yaranan kreditor hüququna dövlət təminat vermir. Eyni şeyi bir insanın müqavilə üzrə ləyaqəti alçaldıcı öhdəlik altına girməsi üçün də deyə bilərik. Ümumi hüquqa isə, belə bir misal gətirə bilərik ki, işgəncə ilə toplanan sübutlar, mötəbər olsalar belə, ədalət mühakiməsində istifadə olunmur. Habelə, bu sübutlardan törəmə sübutlar üçün belə vəziyyət eynidir. İnsan hüquqlarının dördüncü xüsusiyyəti də budur ki, bunlar universaldır. Əslində, universallıq, daha çox birinci nəsil (əsas) hüquqlara aiddir. Bu iddia ikinci nəsil hüquqlar baxımından isə, bütövlükdə, düzgün sayılmaya bilər. Məsələn, ABŞ-da pulsuz tibbi yardım hüququ deyilən bir hüququ qanunvericilik tanımır. Habelə, ali təhsil "azadlıqlar ölkəsində" ancaq ödənişli əsaslarla həyata keçirilir. Lakin təbii, ya da əsas hüquqlar baxımından, universallıq mütləqdir - bir insan istər İngiltərədə, istər Zimbabvedə, istərsə də Tayvanda, haranın vətəndaşı olursa olsun, ya da ki, köçəri və evsiz olsun, eyni hüquqlara, sahibdir (seçki kimi siyasi hüquqlara bir qayda olaraq, vətəndaşlar sahibdir). İnsan hüquqları mətnlərində hər kəs sözünün istifadəsi, təsadüfi deyildir. Bu söz, hüququn universallığı, ayrılmazlığı, habelə, ləyaqət və bərabərlik ilə sıx bağlı olduğunu göstərir."

Qərb ölkəsinin, insan hüquqları sahəsində ikili standart tətbiq etdiyini görə bilərsiniz. Yaxud mücərrəd formada düşünə bilərsiniz ki, təhsili, dünyagörüşü və savadı olmayan bir insana "insan hüquqlarını" tanımaq, başqalarını təhlükəyə atmaq deməkdir. Çünki o, jurnalist ola bilər, bundan sonra lazımlı-lazımsız yerə insanları təhqir edib, media plüralizmi və dözümlülük prinsipləri arxasına sığına bilər. Bəzi cəmiyyətlərdə vətəndaşlar passiv olur, əslində, buna tənbəllik də demək olar. Amma ola bilər ki, fiziki tənbəl olmayan insan siyasi cəhətdən passiv olur. Passiv vətəndaşlar hər şeyi dövlətdən (hakimiyyət orqanlarından) gözlədikləri üçün, bunlar öz hüquqları uğrunda mübarizə aparmazlar. Bununla belə, ABŞ-da hər kəsin ilkin təcili tibbi yardım hüququ tanınır.

Bəzilərinə görə, üçüncü dünya dövlətlərində insan hüquqları ayrıca ictimai bir dəyər kimi ələ alınmır, buna da, əsasən, mədəniyyət və ənənələr təsir göstərir; Qərbdə isə insan hüquqları ictimai bir dəyərdir, Qərb mədəniyyəti və fikrinin məhsuludur. Buna görə Qərb mədəniyyətinə sahib olmayan cəmiyyətlər üçün insan hüquqları "yabancı" bir anlayışdır. Məsələnin digər tərəfi də var. Dünya ölkələrini nəzərdən keçirsəniz, iqtisadi inkişaf cəhətindən başqa, Avropa, Asiya və Amerika qitələrində insan hüquqlarının çox fərqli şəkildə yaşandığını dərk etmək mümkündür.

**Vahid ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 16 fevral

## Xərçəngdən sağalan qız





Bu hadisə bir neçə il əvvəl ABŞ-ın Filadelfiya ştatındakı Filipsburq şəhərində yaşayan Tom və Keri Uaythedlərin ailəsində baş verib. Onkoloqlar onların limfoblastik leykemiya xəstəsi olan 7 yaşlı qızları Emmanı müalicə etməyə çalışsalar da, həkimlərin səyi nəticə verməyib. Lakin valideynləri Emmanı itirmək istəmirdilər...

5 yaşından leykemiya xəstəsi olan Emmanın kəskin limfoblastik leykozunu kimyaterapiya yolu ilə də müalicə etmək mümkün deyildi. Çıxış yolu sayılan onurğa beyninin transplantasiyası üçün də yetərli remissiya yox idi.

AZƏRTAC xarici mətbuata istinadla xəbər verir ki, Onkoloji Xəstəliklər Mərkəzində alternativ müalicə yolu seçərək tibb tarixində indiyədək görünməmiş müalicə üsulunu məhz onun üzərində sınaqdan keçiriblər. Qızın bədəninə bir sıra fəaliyyət effektləri zəiflədilmiş HİV/QİÇS virusu yeridilib. Virus Emmanın bədəninə yeridiləndən sonra fəsadlar yarana bilərdi. Əgər 48 saat sonra fəsadlar ifrat dərəcədə ağırlaşsaydı, xəstəni həyata qaytarmaq mümkün olmayacaqdı...

Virus vurulandan sonra qızdırması yüksələn qız koma vəziyyətinə düşüb. Bir müddət sonra onun bədən hərarəti aşağı enməyə başlayıb. Həkimlər CTL019 adlı immun toplusu sistemi vasitəsilə qızın orqanizmindəki limfoblastoma hüceyrələrini təsirsiz vəziyyətə salmağa çalışıblar. Proses zamanı xəstə orqanizmindəki T-limfositlər bir araya gətirilib, onlardan nümunə alınıb və laboratoriya şəraitində CD19 adlı protein əlavə olunandan sonra yenidən xəstəyə vurulub.

T-limfositlərin limfoblastik leykoz nəticəsində zədələnmiş B hüceyrələrinə qarşı çevrilməsi qızın immunitetini genetik səviyyədə dəyişdirərək onun xərçəngə qalib gəlməsinə səbəb olub. Emma Uaythedin orqanizmində bir qədər dəyişmiş T-hüceyrələr qalsa da, onların sayı çox azdır.

Alimlərin verdiyi məlumata görə, belə müalicə üsulu tətbiq ediləndə fəsadlı B-hüceyrələrlə yanaşı, sağlam hüceyrələr də ölür və xəstə müxtəlif infeksiyalar qarşısında çarəsiz qalır. Ona görə də Emmaya immunqlobin vurulub. Həmin əməliyyatın uğuru onkologiyada sıçrayış sayıla bilər.

## Dırnaq yemək ölümcül xəstəlik yaradır!

İnsanlar düşünürlər ki, dırnaq yemək narahatçılıqdan irəli gəlir. Dırnağını və ya dırnaqətrafı əti dişləyib qoparan insan görəndə adətən onun gərgin olduğunu düşünürük. Əslində isə yanılırıq. Çünki alimlərin gəldiyi qənaət göstərib ki, bu insanları digər səbəb birləşdirir. Bəzi hallarda dırnaqlarını yeyənlər üçün böyük təhlükə var. Belə ki, açıq qalan yaralar tədricən mikrobla dolur, infeksiya mənbəyinə çevrilir. Hətta tarixdə bu qəribə vərdişin həyatını əlindən aldığı onlarla insan var.

Yer planetinin əhalisinin 20-30 %-i dırnaqlarını yeyir. Bunların əksəriyyəti qadınlardır. Bu zəifliyə çox vaxt həyəcan səbəb olur. İnsan öz dünyasına qapanır, özünə güvəni get-gedə zəifləyir. Dırnaqlarını dişilə qoparıb tullayaraq sanki özünü sakitləşdirməyə çalışır. Alimlər iddia edirlər ki, bu vərdiş insanı sakitləşdirsə də, onun yaranma səbəbləri müxtəlifdir. Məlum olub ki, bu xəstəlikdən daha çox perfeksionizmə, yəni mükəmməlliyə can atan insanlar əziyyət çəkirlər. İnsan həyatındakı uğursuzluqlardan, arzularını gerçəkləşdirə bilməməsindən təngə gəlir.

Perfeksionistlər adətən daimi irəliləyişi sevirlər. O, baş verməyəndə isə kədərlənib, dırnaq yeməkdə təsəlli axtarırlar. Bunun qarşısını almağın tək yolu var. Əlinizdə olanlarla zövq almağa çalışaraq, həyatınızı yüngülləşdirin.

## ELAN

Xızı rayon Torpaq Şöbəsi tərəfindən İmamverdiyev Yadigar Rzaqulu oğluna məxsus 2.40 hektar torpaq sahəsinə verilmiş Dövlət torpağa mülkiyyət hüququna dair Dövlət Aktı sənədi (№0065, KOD 30610018) itdiyi üçün etibarsız sayılır.

## Nigar Arpadarai: “Azərbaycan Formula-1 yarışlarından 277 milyon ABŞ dolları gəlir götürüb”



“PricewaterhouseCoopers” (PwC) beynəlxalq audit şirkətinin apardığı müstəqil araşdırmanın nəticələrinə görə, Bakıda keçirilən Formula-1 yarışları ölkə iqtisadiyyatına əhəmiyyətli dərəcədə müsbət təsir göstərib. Araşdırmanın nəticələrinə dair hazırlanmış hesabatda qeyd olunur ki, Formula-1 yarışları Azərbaycan iqtisadiyyatına ümumilikdə 277,3 milyon ABŞ dolları gəlir gətirib.

AZƏRTAC xəbər verir ki, bu sözləri fevralın 15-də təşkil olunan brifinqdə “Bakı Şəhər Halqası” Əməliyyat Şirkətinin marketinq və kommunikasiya departamentinin rəhbəri Nigar Arpadarai deyib.

N.Arpadarai bildirib ki, hesabat Bakıda 2016-cı ilin iyununda baş tutmuş ilk Formula-1 yarışından bu günədək olan müddətdə Qran-Pri yə ev sahibliyinin şəhərimizə faydalarının iqtisadi qiymətləndirilməsini əks etdirir. Hesabatda 277,3 milyon dollar olaraq göstərilən yekun məbləğ yarışlar ərəfəsində Formula-1 ilə əlaqədar Bakıya gələnlərin xərcləri əsasında yaranmış birbaşa və dolayı gəlirləri əhatə edir. Bu rəqəmə iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən peşəkar xidmətlər, hotel və mehmanxana, restoran, nəqliyyat, sosial və mədəni xidmətlər, kənd təsərrüfatı, poçt və telekommunikasiya, topdan ticarət və elektrik, qaz, su və digər sektorlarda qeydə alınmış gəlirlər daxildir.

“Birbaşa gəlirlərdə əsas yeri turizm sektoru tutur. Bakıda keçirilən iki Qran-Pri ərəfəsində qeydə alınmış birbaşa gəlirlərin 22,7 milyon dolları məhz bu sektorun payına düşür. Bu dövrdə birbaşa gəlirlər ümumilikdə 164,2 milyon dollar təşkil edib. Bu rəqəmə Formula-1 ilə əlaqədar Bakıya gələn qonaq və yarış iştirakçılarına mehmanxana, restoran və nəqliyyat istiqamətləri üzrə təqdim olunmuş məhsul və xidmətlər, həmçinin bu məhsul və xidmətlərlə birbaşa əlaqədə yaranmış digər gəlirlər daxildir”, - deyə Nigar Arpadarai diqqətə çatdırıb.

BŞH-nin departament rəhbəri deyib ki, indiyədək Bakıda keçirilmiş iki Qran-Pri ərəfəsində dolayı gəlirlər 113,1 milyon dollar təşkil edib. Şəhərin turizm sektoru 14,9 milyon dollarla ən çox gəlir gətirən sahə olub. Hesabatda qeyd olunmuş dolayı gəlirlərə Bakıda keçirilmiş Qran-Pri yarışlarının təşkilati işlərində birbaşa yer alan təchizatçı şirkətləri məhsul və xidmətlərlə təmin edən şirkətlərin və digər əlaqədar biznes qurumlarının əldə etdiyi gəlirlər daxildir”.

## FIFA futbol üzrə milli komandaların növbəti reytinq cədvəlini açıqlayıb

FIFA futbol üzrə milli komandaların növbəti reytinq cədvəlini açıqlayıb. Belə ki, millimiz ötən ayla müqayisədə bir pillə geriləyib. Yığma komandamız 275 xalla 119-cu yerdə qərarlaşıb.

Qeyd edək ki, cədvələ 1602 xalla Almaniya başçılıq edir. Braziliya 1482 xalla ikinci, Portuqaliya isə 1358 xalla ilk üçüncü pillədə qərarlaşıblar.

## Ronaldo ÇL-də 100 qol vuran ilk futbolçu oldu



“Real”ın superulduzu Kriştianu Ronaldo Çempionlar Liqasının (ÇL) tarixinə düşüb. SİA-nın məlumatına görə, 33 yaşlı hücumçu yeni uğuruna turnirin 1/8 final mərhələsinin PSJ ilə keçirilən ilk oyununda (3:1) qovuşub. Komandasının qələbəsində dublla böyük pay sahibi olan Ronaldo ÇL-də 100 qol vuran ilk futbolçu adına yiyələnib. İkinci pillədə 97 qolla “Barselona”nın futbolçusu Lionel Messi qərarlaşıb.

## De Bruyne Messini geridə qoyub



“Mançester Siti”nin yarımmüdafiəçisi Kevin De Bruyne məhsuldar ötürmə ilə bağlı göstəricisini bir qədər də yaxşılaşdırıb. Ulduz futbolçu Premyer Liqanın XXVII turunda “Lester”lə qarşılaşmada 3 assistlə yadda qalıb. Cari mövsüm meydana çıxdığı 37 görüşdə 11 qol və 18 məhsuldar ötürməyə imza atan belçikalı 2012-ci ilin avqustundan bəri Avropada ən çox qol ötürməsi verən futbolçularının sıralamasında liderliyə yüksəlib. Assist sayını 77-yə çatdıran “şəhərlilər”in lideri bununla “Barselona”nın ulduzu Lionel Messini də geridə qoyub.

Qeyd edək ki, “Mançester Siti”-“Lester” oyunu meydan sahiblərinin 5:1 hesablı qələbəsi ilə nəticələnib.

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500